17 Noyabr Milli Dirçəliş Günüdür

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 211 (10231) 17 noyabr 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





Milli dirçəlişdən tarixi Zəfərə

Ulu Öndər Heydər Əliyevin Naxçıvanda qoyduğu və müstəqillik illərində inkişaf etdirdiyi müdrik strateji xətt ölkəmizin gələcək taleyini müəyyənləşdirən təməl daşı oldu. Həmin təməl üzərində ucalan müasir Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır.

1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılan, illər boyu xalqımızı müstəqil ideallar ətrafında birləşdirən üçrəngli müqəddəs bayrağımız bu gün artıq işğaldan azad edilmiş bütün torpaqlarımızda - Xankəndidə, Şuşada, Laçında və digər ata-baba yurdlarımızda əzəmətlə dalğalanır.

Xalqımızın dahi liderin ideyalarına sadiq qalaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşməsi 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfəri təmin etdi.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri ilə ölkəmizin suverenliyi tam bərpa olundu.

Tarixin qəribə və simvolik ironiyası onda idi ki, ötən əsrin sonlarında - 1988-ci il fevralın 20-də şovinist ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin binasında Azərbaycanın əleyhinə bədnam qərar qəbul etmiş və həmin binanın qarşısındakı meydanı "dirçəliş meydanı" adlandırmışdılar. Lakin əsl tarixi və ilahi ədalət illər sonra öz yerini tapdı. Üzərindən illər keçdikdən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin məhz həmin meydanda - Xankəndinin mərkəzində Azərbaycan Bayrağını ucaltması Zəfər nöqtəsi oldu.

2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağını dalğalandıran Prezident İlham Əliyevin dediyi kimi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

36 il əvvəl noyabrın 17-də Naxçıvan sessiyası zamanı qaldırılan üçrəngli müqəddəs bayrağımız bu gün bütöv və suveren Azərbaycanın hər qarışında əzəmətlə dalğalanır. Azərbaycan öz müqəddəratını özü həll edən, sərhədləri toxunulmaz, müstəqilliyi əbədi və dönməz olan qüdrətli dövlətdir. Milli dirçəlişdən başlanan bu şanlı yol xalqımızın əbədi Zəfər salnaməsidir.

12

Radio və televiziya ölkəmizə qarşı ideoloji hücumların qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır

Azərbaycan Respublikasının televiziya və radio işçilərinə

Hörmətli radio və televiziya işçiləri!

Azərbaycan radiosunun yaranması milli mətbuat və mədəniyyət tariximizin mühüm hadisələrindən biridir. 1926-cı il noyabrın 6-da ilk dəfə efirə çıxan Azərbaycan radiosu ötən əsr ərzində xalqımızın ictimai-siyasi, mədəni və mənəvi həyatının ayrılmaz hissəsinə çevrildi. Radio uzun illər insanların əsas informasiya mənbəyi olmaqla yanaşı, milli musiqimizin, ədəbiyyatımızın, dilimizin və mənəvi dəyərlərimizin qorunub yaşadılmasına mühüm töhfələr verdi.

Azərbaycan televiziyasının fəaliyyətə başlaması ilə informasiya məkanımızda yeni mərhələnin əsası qoyuldu. Televiziya cəmiyyətin maariflənməsində, milli-mədəni irsimizin təbliğində, ictimai rəyin formalaşmasında və ölkəmizdə baş verən mühüm hadisələrin geniş auditoriyaya çatdırılmasında xüsusi rol oynadı və oynamaqdadır. Radio və televiziya bu gün də dövlətçilik ənənələrimizin, milli kimliyimizin və Azərbaycan həqiqətlərinin təbliği, həmçinin ölkəmizə qarşı ideoloji hücumların qarşısının alınması baxımından mühüm əhəmiyyət daşıyır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan teleradiosuna göstərdiyi diqqət və qayğı bu sahənin inkişafında xüsusi yer tutur. Onun rəhbərliyi və dəstəyi ilə milli televiziya və radio yayımının maddi-texniki bazasının möhkəmləndirilməsi, yaradıcı potensialının artırılması, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atılıb. Heydər Əliyev teleradionu xalqla dövlət arasında mühüm əlaqə vasitəsi, milli birliyin və ideoloji bütövlüyün qorunmasında təsirli platforma kimi qiymətləndirirdi.

Bu gün Azərbaycan radio və televiziyası müasir texnologiyaların imkanlarından yararlanaraq öz fəaliyyətini yeni dövrün tələblərinə uyğun qurur, ölkəmizin uğurlarını, zəngin mədəniyyətini və milli maraqlarını geniş auditoriyaya çatdırır. Bu məsuliyyətli və şərəfli işdə çalışan hər bir əməkdaşın zəhməti xüsusi təqdirə layiqdir.

İnanıram ki, milli radio və televiziyamız bundan sonra da obyektivliyin, peşəkarlığın və milli-mənəvi dəyərlərə sədaqətin nümunəsi olacaq, Azərbaycan cəmiyyətinin inkişafına və dövlətçiliyimizin möhkəmlənməsinə layiqli töhfələr verəcəkdir.

Bir daha sizi milli radio və televiziya yayımının əlamətdar yubileyi münasibətilə ürəkdən təbrik edir, yeni yaradıcılıq uğurları, tükənməz enerji və fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 15 noyabr 2026-cı il

"Biz bundan sonra da qardaş Fələstin xalqına humanitar dəstək göstərməyə davam edəcəyik"

Fələstin Dövlətinin Prezidenti zati-aliləri cənab Mahmud Abbasa

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə Fələstin arasında dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərə böyük əhəmiyyət veririk.

Azərbaycan Fələstin məsələsinə münasibətdə hər zaman həmrəylik nümayiş etdirərək bu problemin paytaxtı Şərqi Qüds olan müstəqil Fələstin Dövlətinin yaradılması və BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq iki dövlət prinsipi əsasında həllini dəstəkləyir.

Biz bundan sonra da qardaş Fələstin xalqına humanitar dəstək göstərməyə davam edəcəyik.

Fürsətdən istifadə edərək Sizi ad gününüz münasibətilə də təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Fələstin xalqının əmin-amanlığı və rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 12 noyabr 2026-cı il

Prezidentin sosial şəbəkə hesablarında Milli Dirçəliş Günü ilə bağlı paylaşım edilib

Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Milli Dirçəliş Günü ilə bağlı paylaşım olunub.

AZƏRTAC paylaşımı təqdim edir:



Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayraq

İndi Azərbaycanın bütün ərazisində qürurla dalğalanır

Müstəqillik yolunda ilkin addımlar Ümummilli Lider tərəfindən Naxçıvanda atılmışdı və bu, o vaxt baş verirdi ki, SSRİ kimi imperiya hələ tarix səhnəsindən silinməmişdi. Bununla Naxçıvanda başlanan demokratik proseslər tezliklə Azərbaycanı ayağa qaldırdı. Həmin vaxt Naxçıvan artıq Azərbaycanın siyasi mərkəzinə çevrilmişdi. Bakıda oturaraq ölkənin müstəqilliyi barədə qərar qəbul etməyə tərəddüd göstərən ovaxtkı iqtidar bütün bu addımları düzgün qiymətləndirə bilmir, ya da qiymətləndirmək istəmirdi.



Lakin Naxçıvan Ali Məclisi Heydər Əliyevin rəhbərliyi ilə artıq milli dövlətçilik ənənələrinin təşəkkül tapmasına istiqamətlənmiş mühüm tarixi qərarları qəbul edirdi.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixli sərəncamında bu hadisənin nə qədər tarixi əhəmiyyətə malik olduğu bir daha vurğulanmışdır.

12

Prezidentin Mətbuat Xidmətinin məlumatı

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarına qarşı kiberhücumlar müşahidə olunur.

Aidiyyəti qurumlar tərəfindən bu hücumların qarşısının alınması və araşdırılması istiqamətində müvafiq tədbirlər görülür.

Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsi təsdiq edilsin.

Maddə 2. Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsi qüvvəyə mindiyi gündən aşağıdakı qanunlar ləğv edilir:

2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 5 (I kitab), maddə 489, №7, maddə 748, № 8, maddə 934; 2025, № 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606, № 12 (I kitab), maddə 1123; 2026, № 1, maddə 15, № 3, maddə 210; № 6, maddə 495; № 7 (I kitab), maddə 608; №8, maddə 773);

2.2. "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikasının 2001-ci il 22 iyun tarixli 156-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 575 (Cild I); 2025, № 4 (I kitab), maddə 322);

2.3. "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 217 (Cild I); 2024, № 7, maddə 749, № 12 (II kitab), maddə 1337);

2.4. "Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında" Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 335-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 387 (Cild I);

2.5. "Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında" Azərbaycan Respublikasının 2003-cü il 5 dekabr tarixli 537-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 5 (Cild I);

2.6. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının 2007-ci il 31 may tarixli 352-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 750 (Cild I); 2026, № 6, maddə 492).

Maddə 3. Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarıAzərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsinə uyğunlaşdırılanadək həmin Məcəlləyə zidd olmayan hissədə tətbiq edilir.

Maddə 4. Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsi qüvvəyə mindiyi günədək qüvvədə olmuş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq inzibati vəzifə üzrə test imtahanından keçdiyini təsdiq edən və etibarlılıq müddəti başa çatmamış "Dövlət qulluğu sertifikatı"na malik olan şəxslər həmin sertifikatın qüvvədə olma müddəti ərzində bu Məcəlləyə uyğun olaraq müsahibələrdə iştirak etmək hüququna malikdirlər.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 oktyabr 2026-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT QULLUĞU MƏCƏLLƏSİ

(Bu Məcəllə Azərbaycan Respublikasının 2026-cı il 16 oktyabr tarixli 490-VIIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir)

M Ü N D Ə R İ C A T

ÜMUMİ HİSSƏ
I Bölmə
ÜMUMİ NORMALAR
FƏSİL 1. Əsas müddəalar
FƏSİL 2. Dövlət qulluğunun idarə edilməsi
II Bölmə
DÖVLƏT ORQANI, DÖVLƏT QULLUĞU VƏZİFƏSİ, DÖVLƏT QULLUQÇUSU, QULLUQ STAJI VƏ İXTİSAS DƏRƏCƏSİ
FƏSİL 3. Dövlət orqanlarının və dövlət qulluğu vəzifələrinin təsnifatı
FƏSİL 4. Dövlət qulluqçusunun statusu
FƏSİL 5. Dövlət qulluqçusunun qulluq stajı və ixtisas dərəcəsi
XÜSUSİ HİSSƏ
III Bölmə
DÖVLƏT QULLUĞU KEÇMƏ
FƏSİL 6. Dövlət qulluğu vəzifələrinin tutulması
FƏSİL 7. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi
FƏSİL 8. Dövlət qulluqçusunun həvəsləndirilməsi və məsuliyyəti
FƏSİL 9. Dövlət qulluğuna xitam verilməsi
FƏSİL 10. Dövlət qulluğunda ehtiyat kadrlar, dövlət qulluqçularının reyestri, şəxsi işi və xidməti vəsiqəsi
IV Bölmə
DÖVLƏT QULLUQÇULARI ÜÇÜN TƏMİNATLAR
FƏSİL 11. Dövlət qulluqçularının qulluq şəraiti və əməyinin ödənilməsi sistemi
FƏSİL 12. Dövlət qulluqçusunun əlavə təhsili
V Bölmə
DÖVLƏT QULLUQÇULARININ ETİK DAVRANIŞ QAYDALARI, ONLARIN HƏYATA KEÇİRİLMƏSİNİN TƏMİN OLUNMASI, MƏSULİYYƏT VƏ DÖVLƏT QULLUĞU KEÇMƏNİN DİGƏR MƏSƏLƏLƏRİ
FƏSİL 13. Etik davranış qaydaları
FƏSİL 14. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması
FƏSİL 15. Yekun müddəalar

Bu Məcəllə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndinə uyğun olaraq dövlət qulluğunun hüquqi, təşkilati və maliyyə-iqtisadi əsaslarını müəyyən edir.

ÜMUMİ HİSSƏ
I Bölmə
ÜMUMİ NORMALAR
1-ci fəsil
ƏSAS MÜDDƏALAR

Maddə 1. Əsas anlayışlar

1.1. Bu Məcəllədə istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **analoji vəzifə** - eyni təsnifata daxil olan, tutulması üçün təhsilə və təcrübəyə dair tələbləri eyni, digər tələbləri uyğun olan vəzifə;

1.1.2. **aşağı vəzifə** - dövlət qulluqçusunun tutduğu vəzifənin təsnifatından aşağı təsnifatdan olan və yaxud eyni təsnifata daxil olan vəzifə maaşı aşağı olan vəzifə;

1.1.3. **bilavasitə rəhbər** - vəzifə təlimatına uyğun olaraq dövlət qulluqçusunun birbaşa tabe olduğu vəzifəli şəxs;

1.1.4. **dövlət qulluqçusu** - bu Məcəllə ilə müəyyən edilmiş qaydada dövlət qulluğu vəzifəsinə təyin edilən, bu Məcəllənin 1.1.12-ci maddəsində göstərilən mənbələrdən dövlət məvacibi alan, mülki və ya xüsusi növ dövlət qulluğu vəzifəsi üzrə xidməti fəaliyyəti həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı;

1.1.5. **dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi** - dövlət qulluqçusunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi, onun potensial imkanlarının aşkara çıxarılması və həmin imkanlardan səmərəli istifadə edilməsi, dövlət qulluqçusunun dövlət məvacibinin məbləğinin müəyyənləşdirilməsi, səriştələrini artırmağa stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun olub-olmadığının müəyyənləşdirilməsi məqsədilə hər təqvim ilinin sonunda fəaliyyətinin yoxlanılması;

1.1.6. **dövlət qulluğu** - dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının xidməti fəaliyyəti;

1.1.7. **dövlət qulluğu vəzifəsi** - dövlət orqanının məqsəd və funksiyalarının həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aktları ilə təsis edilən və həmin dövlət orqanının strukturuna əsasən ştat cədvəlində müəyyən edilən mülki və xüsusi növ dövlət qulluğunda olan ştat vahidi;

1.1.8. **dövlət qulluğunun inzibati vəzifəsi** - dövlət orqanının fəaliyyət istiqamətlərinə uyğun olaraq həmin orqanın səlahiyyətlərini bilavasitə həyata keçirən, dövlət orqanının strukturuna əsasən ştat cədvəlində müəyyən edilən ştat vahidi;

1.1.9. **dövlət qulluğu sistemi** - mülki növ dövlət qulluğu və xüsusi növ dövlət qulluğunun məcmusu;

1.1.10. **dövlət qulluğunun yardımçı vəzifəsi** - dövlət orqanlarının strukturuna daxil olan qurumların fəaliyyət göstərməsi ilə bağlı texniki təminatı həyata keçirən, dövlət orqanının strukturuna əsasən ştat cədvəlində müəyyən edilən ştat vahidi;

1.1.11. **dövlət məvacibi** - dövlət qulluqçusuna pul formasında nağdsız qaydada ödənilən aylıq haqq;

1.1.12. **dövlət orqanı** - Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsədini və funksiyalarını həyata keçirən, Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və qanunla müəyyən edilən hallarda əlavə olaraq büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılan və bu Məcəllənin 9.3-cü və 9.4-cü maddələrində nəzərdə tutulan struktura malik olan dövlət təsisatı;

1.1.13. **dövlət orqanının aparatı** - dövlət orqanının fəaliyyət istiqamətləri üzrə hüquq və vəzifələrin həyata keçirilməsini bilavasitə təmin və təşkil edən, dövlət qulluqçularından ibarət ixtisaslaşmış şöbə və (və ya) sektorları özündə birləşdirən dövlət orqanının strukturuna daxil olan qurum;

1.1.14. **dövlət orqanlarının kateqoriyası** - dövlət orqanlarının statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, bir neçə rayon və (və ya) şəhər səviyyəsində və yerli səviyyədə) nəzərə alınmaqla təsnifləşdirilməsi;

1.1.15. **dövlət orqanının strukturu** - dövlət orqanının fəaliyyətini təmin edən strukturuna daxil olan qurumlarının sistemli quruluşu;

1.1.16. **dövlət orqanının strukturuna daxil olan qurumlar** - dövlət orqanının aparatı, dövlət orqanının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri, dövlət orqanının yanında olan orqanlar, yerli bölmələr;

1.1.17. **dövlət orqanlarının yerli bölmələri** - dövlət orqanının yerlərdə (rayon, şəhər və bir neçə rayon və (və ya) şəhər üzrə) fəaliyyətinin təmin edilməsi məqsədilə yaradılan strukturuna daxil olan qurum;

1.1.18. **çeviklik və uyğunlaşma** - dövlət qulluqçularının dövlət məvacibinin səviyyəsinin iqtisadiyyatın inkişaf səviyyəsinə uyğunlaşdırılmasının təmin edilməsi;

1.1.19. **xidməti fəaliyyət** - dövlət qulluqçusunun normativ hüquqi aktlarla müəyyən edilmiş hüquq və vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar fəaliyyəti;

1.1.20. **xüsusi növ dövlət qulluğu** - dövlət orqanlarında xüsusi, hərbi və ya diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə qulluq (xidmət);

1.1.21. **ixtisas dərəcəsi** - dövlət qulluqçusuna tutduğu vəzifənin təsnifatına uyğun olaraq verilən və vəzifə maaşına əlavə haqq almaq hüququ verən dərəcə;

1.1.22. **idarəçilik təcrübəsi** - dövlət qulluqçusunun rəhbər vəzifələr üzrə 5 (beş) ildən çox qulluq stajının olması;

1.1.23. **kobud pozuntu** - bu Məcəllənin 12.1.5-ci, 12.1.7-ci və 12.1.8-ci maddələrinin hər hansı birinin tələblərinə əməl edilməməsi və ya bir hərəkətlə (hərəkətsizliklə) bu Məcəllənin 12.1-ci maddəsinin (bu Məcəllənin 12.1.11-ci maddəsi istisna olmaqla) birdən çox müddəasının pozulması və ya bu Məcəllənin 38.5-ci maddəsi ilə müəyyən edilmiş halın yaranması;

1.1.24. **qulluq funksiyası** - dövlət qulluqçusunun yerinə yetirməli olduğu işlərin (xidmətlərin) məcmusu;

1.1.25. **qulluq müddəti** - bu Məcəllə ilə müəyyən edilmiş qaydada dövlət qulluğu vəzifəsinə təyin edilmə günündən dövlət qulluğuna xitam verilmə gününədək olan müddət;

1.1.26. **qulluq vaxtı** - Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş həftəlik və gündəlik iş saatları ərzində dövlət qulluqçularının qulluq funksiyalarını yerinə yetirməsi üçün müəyyən edilmiş müddət;

1.1.27. **maraqların toqquşması** - dövlət qulluqçusunun qulluq funksiyaları ilə onun şəxsi maraqlarının toqquşması;

1.1.28. **mərkəzi icra hakimiyyəti orqanı** - Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndinə əsasən yaradılan və Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində nəzərdə tutulan hüquqi aktlarla müəyyən edilən fəaliyyət istiqamətlərinə uyğun sahələrdə dövlət siyasətini və tənzimlənməsini həyata keçirən dövlət orqanı;

1.1.29. **motivasiya** - dövlət qulluqçusunun vəzifədə yüksəlişi ilə yanaşı tutduğu vəzifədə fərdi peşəkarlıq və yüksək səriştəlilik keyfiyyətlərinin artırılması ilə əlaqədar əməyinin ödənilməsi sistemi üzrə həvəsləndirilməsi;

1.1.30. **mülki növ dövlət qulluğu** - dövlət orqanlarında ixtisas dərəcəsi nəzərdə tutulan vəzifələrdə qulluq;

1.1.31. **mülki növ dövlət qulluğu vəzifələrinin təsnifatı** - inzibati və yardımçı vəzifələrin adları və onların aid olduğu dövlət orqanlarının kateqoriyası nəzərə alınmaqla təsnifləşdirilməsi;

1.1.32. **mütəmadi pozuntu** - intizam tənbehinin tətbiq edilməsi barədə qərarın qəbul edildiyi gündən bir il ərzində intizam tənbehinin tətbiqi üçün əsas yaradan əməllərin təkrar törədilməsi;

1.1.33. **mütənasiblik** - dövlət qulluqçularının dövlət məvacibinin dövlət orqanının kateqoriyasına, dövlət qulluğu vəzifəsinin təsnifatına, əməyin ödəniş səviyyəsinə, qulluq stajına və xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə uyğun olaraq müəyyən edilməsi;

1.1.34. **rəqabətqabiliyyətlilik** - dövlət qulluqçularının dövlət məvacibinin səviyyəsinin özəl sektorda analoji vəzifələrin əməkhaqqı səviyyələri ilə qulluq funksiyalarının mürəkkəbliyi və məsuliyyəti baxımından balanslaşdırılması;

1.1.35. **rotasiya** - dövlət qulluqçusunun bu Məcəllənin 30-cu maddəsinə uyğun olaraq bir vəzifədən başqa vəzifəyə keçirilməsi;

1.1.36. **səriştə** - qulluq funksiyalarının yerinə yetirilməsi üçün zəruri olan bilik və bacarıqların tətbiqi yolu ilə dövlət qulluqçusunun səmərəli davranış və hərəkətlər göstərmək bacarığı;

1.1.37. **sektor** - şöbə daxilində və ya müstəqil yaradılan ixtisaslaşmış struktur vahid;

1.1.38. **şöbə** - dövlət orqanının strukturuna daxil olan qurumunun bir və daha çox fəaliyyət istiqaməti üzrə səlahiyyətlərini həyata keçirən ixtisaslaşmış struktur bölmə;

1.1.39. **yaxın qohumlar** - dövlət qulluqçusunun atası, anası, qardaşları, bacıları, arvadı (əri), uşaqları, qayınatası, qayınanası, qaynları və baldızları;

1.1.40. **yerli icra hakimiyyəti orqanı** - Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndinə əsasən yaradılan və Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin III hissəsinə uyğun olaraq yerlərdə icra hakimiyyətini həyata keçirən dövlət orqanı.

1.2. Bu Məcəllədə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyənləşdirilmiş mənaları ifadə edir.

Maddə 2. Dövlət qulluğu haqqında qanunvericilik

Dövlət qulluğu haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Məcəllədən, Azərbaycan Respublikasının Əmək Məcəlləsindən və digər normativ hüquqi aktlardan ibarətdir.

Maddə 3. Bu Məcəllənin tətbiq dairəsi

3.1. Bu Məcəllə dövlət orqanlarında qulluqkeçmənin ümumi qaydalarını və şərtlərini, mülki növ dövlət qulluğunda qulluq keçən dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı münasibətləri tənzimləyir.

3.2. Xüsusi növ dövlət qulluğunda qulluqkeçmə (xidmətkeçmə) bu Məcəllənin Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğu vəzifəsinə təyin edilmək hüququna, dövlət qulluğu vəzifəsinə təyinatın müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları, həmçinin bu Məcəllənin 58-ci maddəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının digər qanunları ilə tənzimlənir.

3.3. Bu Məcəllədə başqa hal nəzərdə tutulmamışdırsa, bu Məcəllə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Baş nazirinə və onun müavinlərinə, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katiblərinə və üzvlərinə, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, Ali Attestasiya Komissiyasının sədrinə və sədr müavininə, Azərbaycan Respublikası Media və Yayım Şurasının sədrinə və digər üzvlərinə, yerli icra hakimiyyəti başçılarına, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbərinə, habelə hərbi qulluqçulara şamil olunmur.

3.4. Bu Məcəllə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinə şamil edilmir. Bu işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

Maddə 4. Dövlət qulluğunun prinsipləri

4.1. Dövlət qulluğu aşağıdakı prinsiplərə əsaslanır:

4.1.1. qanunçuluq;

4.1.2. dövlət qulluğunun şəffaflığı və aşkarlığı;

4.1.3. dövlət qulluqçularının peşəkarlığı və fəaliyyətinin səmərəliliyi;

4.1.4. dövlət orqanlarında mülki növ dövlət qulluğu və xüsusi növ dövlət qulluğunun vəhdəti;

4.1.5. dövlət orqanlarının və dövlət qulluqçularının fəaliyyətinə nəzarət və onların hesabatlılığı;

4.1.6. yuxarı kateqoriya dövlət orqanlarının və yuxarı vəzifəli şəxslərin qanunauyğun qərar, əmr, sərəncam və tapşırıqlarının icrasının aşağı kateqoriya dövlət orqanları və aşağı vəzifəli dövlət qulluqçuları üçün məcburiliyi;

4.1.7. inzibati vəzifələrin müsabiqə və daxili müsahibə vasitəsilə tutulması;

4.1.8. vətəndaşların təhsil, bilik, bacarıq, təcrübə və səriştələrinə uyğun olaraq dövlət qulluğu vəzifəsi tutmaqda hüquq bərabərliyi;

4.1.9. irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, yaşayış yerindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən, habelə xidməti fəaliyyətinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq, dövlət qulluqçularının hüquq bərabərliyi;

4.1.10. dövlət qulluqçularının sosial müdafiəsi, onların özləri və ailə üzvləri üçün layiqli həyat səviyyəsinin təmin edilməsi;

4.1.11. qulluq funksiyalarının yerinə yetirilməməsinə görə dövlət qulluqçusunun məsuliyyət daşıması, eləcə də dövlət qulluqçusunun qanunsuz hərəkətləri nəticəsində vurulmuş zərərə görə dövlət orqanının məsuliyyət daşıması;

4.1.12. qulluq funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar dövlət qulluqçularının fəaliyyətinə qanunsuz müdaxilələrin yolverilməzliyi;

4.1.13. dövlət qulluqçularının qərəzsizliyi.

2-ci fəsil
DÖVLƏT QULLUĞUNUN İDARƏ EDİLMƏSİ

Maddə 5. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası

5.1. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası (bundan sonra - Şura) bu Məcəllənin tətbiqinə nəzarəti və dövlət qulluğunun normativ-metodik təminatını həyata keçirir.

5.2. Şura 18 üzvdən ibarət tərkibdə təşkil edilir. Şuranın 6 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 6 üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən və 6 üzvü Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir.

5.3. Şura öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri ilə qarşılıqlı əlaqədə qurur, onları özünün fəaliyyəti haqqında mütəmadi məlumatlandırır.

5.4. Şuranın üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər və özlərinin fəaliyyətində müstəqildirlər.

5.5. Şura "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri və öz adı əks olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

Maddə 6. Şuranın fəaliyyət istiqamətləri

6.1. Şuranın fəaliyyət istiqamətləri aşağıdakılardır:

6.1.1. vahid dövlət kadr siyasətinin və dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

6.1.2. bu Məcəllənin tətbiqinə nəzarəti və dövlət qulluğunun normativ-metodik təminatını həyata keçirmək;

6.1.3. bu Məcəllədə nəzərdə tutulmuş hallarda müraciətlərə, o cümlədən şikayətlərə baxmaq.

Maddə 7. Şuranın vəzifələri və hüquqları

7.1. Bu Məcəllə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Şuranın vəzifələri aşağıdakılardır:

7.1.1. dövlət qulluğu sahəsində normativ hüquqi aktların, dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların və bu kimi digər sənədlərin, metodik göstərişlərin hazırlanmasında iştirak etmək və bu sahədə dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək;

7.1.2. dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işini həyata keçirmək;

7.1.3. dövlət orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işini əlaqələndirmək;

7.1.4. dövlət orqanlarında dövlət qulluğunun vəziyyətini və səmərəliliyini təhlil etmək;

7.1.5. dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması yollarını araşdırmaq və bununla bağlı tədbirlər görmək;

7.1.6. dövlət qulluğunun təşkili və səmərəliliyinin artırılması məsələləri ilə əlaqədar beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək;

7.1.7. dövlət qulluqçularının qulluq stajının hesablanması, onlara ixtisas dərəcələrinin verilməsi, habelə xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması ilə əlaqədar yaranmış mübahisələrə dair dövlət qulluqçuları və ya dövlət orqanlarının, habelə dövlət qulluğuna xitam verilmiş şəxslərin müraciətlərinə baxmaq;

7.1.8. dövlət orqanlarının dövlət qulluğu ilə bağlı qanunsuz aktlarının ləğv edilməsini təmin etmək;

7.1.9. dövlət qulluqçularının təlim strategiyasına razılıq vermək;

7.1.10. dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlərin və dövlət qulluqçuları üçün təminatların yerinə yetirilməsinə nəzarət etmək;

7.1.11. Dövlət qulluqçularının reyestrinin aparılmasına nəzarət etmək;

7.1.12. dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi, o cümlədən dövlət orqanlarında əmək intizamının pozulması və əmək mübahisələri ilə bağlı vəziyyəti öyrənmək və ümumiləşdirmək.

7.2. Öz vəzifələrini yerinə yetirmək üçün Şuranın aşağıdakı hüquqları vardır:

7.2.1. dövlət orqanları üçün icrası məcburi olan qərarlar qəbul etmək;

7.2.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

7.2.3. Azərbaycan Respublikasının dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları), beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

7.2.4. dövlət qulluqçularının əlavə təhsili sahəsində vəziyyəti təhlil etmək və bununla bağlı təkliflər hazırlamaq;

7.2.5. fəaliyyət istiqamətləri üzrə rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

7.2.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək.

Maddə 8. Şuranın fəaliyyətinin idarə olunması

8.1. Şuranın fəaliyyətinə rəhbərliyi Şuranın sədri həyata keçirir. Şuranın sədri onun tərkibindən Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilir.

8.2. Şuranın iclasları ildə iki dəfədən az olmayaraq keçirilir. Bu Məcəllənin 8.3-cü maddəsində nəzərdə tutulmuş Reqlamentlə müəyyən edilmiş qaydada Şuranın növbədənkənar iclasları çağırıla bilər. Şuranın iclasları onun üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın müzakirə etdiyi məsələlərə dair qərarları açıq səsvermə yolu ilə Şuranın iclasında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı xüsusi rəyi olan Şuranın üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

8.3. Şura özünün Reqlamentini təsdiq edir.

8.4. Şuranın fəaliyyətinin təşkilini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan Katiblik həyata keçirir. Katibliyin işini Şuranın iclasında Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilən katib təşkil edir.

8.5. Şuranın katibi Şuranın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həlli, Şuranın müzakirəsinə çıxarılacaq məsələlər üzrə sənədlərin hazırlanması və Şuranın qərarlarının icrası ilə əlaqədar kargüzarlıq və digər işlərin aparılması üzrə fəaliyyəti həyata keçirir.

8.6. Şuranın qəbul etdiyi qərarların məcburiliyi dövlət qulluqçuları üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

8.7. Şuranın qəbul etdiyi qərarlar icra edilməsi üçün 3 (üç) iş günü müddətində aidiyyəti dövlət orqanlarına göndərilir. Dövlət orqanlarının rəhbərləri tərəfindən həmin qərarların icra vəziyyəti barədə hesabat 30 (otuz) gün müddətində Şuraya təqdim edilir.

II Bölmə
DÖVLƏT ORQANI, DÖVLƏT QULLUĞU VƏZİFƏSİ, DÖVLƏT QULLUQÇUSU, QULLUQ STAJI VƏ İXTİSAS DƏRƏCƏSİ
3-cü fəsil
DÖVLƏT ORQANLARININ VƏ DÖVLƏT QULLUĞU VƏZİFƏLƏRİNİN TƏSNİFATI

Maddə 9. Dövlət orqanlarının kateqoriyası

9.1. Dövlət orqanları aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılır:

9.1.1. ali kateqoriya dövlət orqanları - əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, habelə Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanlar, Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidməti, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı, Azərbaycan Respublikası Milli Məclisinin Aparatı, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparatı, Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatı;

9.1.2. 1-ci kateqoriya dövlət orqanları - əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, habelə Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları və ya Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparatı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının aparatları, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikası Hesablama Palatasının Aparatı, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının Aparatı, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı;

9.1.3. 2-ci kateqoriya dövlət orqanları - əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları - Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Aparatı, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin aparatları, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının və ona bərabər tutulan orqanların aparatları, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi, Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi, Azərbaycan Respublikası Media və Yayım Şurasının Aparatı, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətlərinin aparatları;

9.1.4. 3-cü kateqoriya dövlət orqanları - əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsi ilə və qanunla müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatları, Azərbaycan Respublikası xarici ölkələrdə ticarət nümayəndələrinin aparatları, Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzləri, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının aparatları, ağır cinayətlər məhkəmələrinin, inzibati məhkəmələrinin, kommersiya məhkəmələrinin, hərbi məhkəmələrinin aparatları, Bakı şəhər prokurorluğu;

9.1.5. 4-cü kateqoriya dövlət orqanları - əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları - yerli icra hakimiyyəti başçılarının aparatları (müvafiq icra hakimiyyəti orqanının aparatı istisna olmaqla), Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələri, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin aparatları, müvafiq icra hakimiyyəti orqanının yanında olan orqanlar, rayon (şəhər) məhkəmələrinin aparatları, rayon (şəhər) prokurorluqları və hərbi prokurorluqlar;

9.1.6. 5-ci kateqoriya dövlət orqanları - əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilən dövlət orqanları - Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələri, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəlikləri.

9.2. Dövlət orqanlarının və onların strukturuna daxil olan qurumların adlarının siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

9.3. Dövlət orqanlarının strukturuna daxil olan qurumlarında işçilərin müəyyən edilmiş say həddi daxilində şöbə, onun tərkibində və ya müstəqil sektor yaradıla bilər. Ali kateqoriya dövlət orqanlarında başqa struktur bölmələr də yaradıla bilər.

9.4. Dövlət orqanlarında şöbə və sektor müdirləri də daxil olmaqla, şöbə yaradılması üçün minimum 8 ştat vahidinin (dövlət sirrinin mühafizəsi üzrə minimum 3 ştat vahidinin), sektor yaradılması üçün minimum 3 ştat vahidinin olması tələb olunur.

Maddə 10. Dövlət qulluğu vəzifələrinin təsnifatı

10.1. İnzibati vəzifələrin aşağıdakı təsnifatları vardır:

10.1.1. inzibati vəzifələrin ali təsnifatı:

10.1.1.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri;

10.1.1.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur qurumun rəhbəri;

10.1.1.3. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərləri;

10.1.1.4. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi;

10.1.1.5. Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri;

10.1.1.6. Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri;

10.1.1.7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının rəhbəri və Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının rəhbəri;

10.1.2. inzibati vəzifələrin birinci təsnifatı:

10.1.2.1. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbəri;

10.1.2.2. Azərbaycan Respublikası Prezidentinin köməkçisi;

10.1.2.3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında struktur bölmə və ya ona bərabər tutulan digər struktur qurumun rəhbəri;

10.1.2.4. Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi;

10.1.2.5. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi;

10.1.2.6. Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi;

10.1.2.7. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Azərbaycan Respublikası Birinci vitse-prezidentinin fəaliyyətini təmin edən struktur qurumun rəhbərinin müavini;

10.1.2.8. Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi;

10.1.2.9. Azərbaycan Respublikası vitse-prezidentinin köməkçisi;

10.1.2.10. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin müavinləri;

10.1.2.11. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini və Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində şöbə müdiri;

10.1.2.12. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbərinin müavini;

10.1.2.13. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini;

10.1.2.14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı rəhbərinin müavini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbəri;

10.1.2.15. Azərbaycan Respublikası Milli Məclisi Aparatı rəhbərinin müavini və Azərbaycan Respublikası Milli Məclisinin Aparatında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbəri;

10.1.2.16. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatları rəhbərlərinin müavinləri, habelə həmin dövlət orqanlarının aparatlarında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbəri;

10.1.2.17. 1-ci kateqoriya dövlət orqanları aparatlarının rəhbərləri;

10.1.3. inzibati vəzifələrin ikinci təsnifatı:

10.1.3.1. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin köməkçisi;

10.1.3.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanlarda struktur bölmə rəhbəri və onun müavini;

10.1.3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbərinin müavini;

10.1.3.4. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbərinin müavini;

10.1.3.5. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında struktur bölmənin və ya ona bərabər tutulan digər struktur qurumun rəhbərinin müavini;

10.1.3.6. 1-ci kateqoriya dövlət orqanlarının aparatları rəhbərlərinin müavinləri və həmin orqanların aparatlarında struktur bölmə rəhbəri;

10.1.3.7. Azərbaycan Respublikası Baş nazirinin müşaviri, köməkçisi;

10.1.3.8. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müşaviri, köməkçisi;

10.1.3.9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi sədrlərinin müşavirləri, köməkçiləri;

10.1.3.10. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparatlarının rəhbərləri;

10.1.3.11. Azərbaycan Respublikası apellyasiya məhkəmələri, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanı və ona bərabər tutulan orqanların aparatlarının, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin, Azərbaycan Respublikası Media və Yayım Şurası aparatının rəhbərləri, Azərbaycan Respublikası Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi;

10.1.3.12. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;

10.1.3.13. Azərbaycan Respublikasının xarici ölkədə ticarət nümayəndəsi;

10.1.3.14. müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavini;

10.1.4. inzibati vəzifələrin üçüncü təsnifatı:

10.1.4.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında mütəxəssis;

10.1.4.2. Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanlarda mütəxəssis;

10.1.4.3. Azərbaycan Respublikası Təhlükəsizlik Şurası katibinin xidmətində mütəxəssis;

10.1.4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında mütəxəssis və Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında struktur bölməyə bərabər tutulan digər struktur qurumda struktur bölmənin rəhbəri, onun müavini və mütəxəssis;

10.1.4.5. Azərbaycan Respublikası Baş naziri müavininin köməkçisi;

10.1.4.6. Azərbaycan Respublikası Milli Məclisinin Aparatında mütəxəssis və Azərbaycan Respublikası Milli Məclisinin Aparatında struktur bölməyə bərabər tutulan digər struktur qurumda struktur bölmənin rəhbəri, onun müavini və mütəxəssis;

10.1.4.7. Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavininin köməkçisi;

10.1.4.8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında mütəxəssis və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin aparatlarında struktur bölməyə bərabər tutulan digər struktur qurumda struktur bölmənin rəhbəri, onun müavini və mütəxəssis;

10.1.4.9. 1-ci kateqoriya dövlət orqanlarında struktur bölmə rəhbərinin müavini;

10.1.4.10. 2-ci kateqoriya dövlət orqanları aparatlarının rəhbərləri (bu Məcəllənin 10.1.3.11-ci, 10.1.4.17-ci və 10.1.5.5-ci maddələri nəzərə alınmaqla) və onların müavinləri, həmin orqanların aparatlarında struktur bölmə rəhbərləri;

10.1.4.11. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparatları rəhbərlərinin müavinləri və həmin dövlət orqanlarında struktur bölmə rəhbəri;

10.1.4.12. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin müavinləri;

10.1.4.13. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri;

10.1.4.14. Azərbaycan Respublikası Hesablama Palatası sədrinin və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) müşavirləri, köməkçiləri;

10.1.4.15. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, müvafiq icra hakimiyyəti orqanının rəhbərlərinin müşavirləri, köməkçiləri;

10.1.4.16. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi;

10.1.4.17. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətləri aparatlarının rəhbərləri və onların müavinləri;

10.1.5. inzibati vəzifələrin dördüncü təsnifatı:

10.1.5.1. 1-ci kateqoriya dövlət orqanlarında mütəxəssis;

10.1.5.2. 2-ci kateqoriya dövlət orqanlarının aparatlarında struktur bölmə rəhbərinin müavini (bu Məcəllənin 10.1.5.5-ci və 10.1.5.10-cu maddələri nəzərə alınmaqla);

10.1.5.3. Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi Nümayəndəliyi rəhbərinin müavini;

10.1.5.4. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri rəhbərlərinin müavinləri;

10.1.5.5. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan, rəhbəri və rəhbərinin müavinləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında struktur bölmə rəhbərləri və onların müavinləri, həmin orqanların rəhbərlərinin müşavirləri və köməkçiləri;

10.1.5.6. Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanlarının aparatlarında struktur bölmə rəhbərinin müavini;

10.1.5.7. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların rəhbərlərinin müşavirləri, köməkçiləri;

10.1.5.8. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası rəhbərinin köməkçisi;

10.1.5.9. Azərbaycan Respublikası Media və Yayım Şurası sədrinin köməkçisi;

10.1.5.10. Azərbaycan Respublikası apellyasiya məhkəmələrinin, Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanlarının və onlara bərabər tutulan orqanların aparatlarında, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyində, Azərbaycan Respublikası Media və Yayım Şurasının Aparatında struktur bölmə rəhbərlərinin müavinləri;

10.1.5.11. Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzinin rəhbəri və onun müavini;

10.1.5.12. yerli icra hakimiyyəti (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) başçısının müavini;

10.1.5.13. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında struktur bölmə rəhbərləri;

10.1.6. inzibati vəzifələrin beşinci təsnifatı:

10.1.6.1. 2-ci kateqoriya dövlət orqanlarında mütəxəssis;

10.1.6.2. Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanı aparatlarının rəhbərləri;

10.1.6.3. 3-cü kateqoriya dövlət orqanlarında struktur bölmə rəhbəri və onun müavini (bu Məcəllənin 10.1.5.13-cü və 10.1.6.4-cü maddələri nəzərə alınmaqla);

10.1.6.4. Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin aparatlarında struktur bölmə rəhbərlərinin müavinləri;

10.1.6.5. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanının yanında olan orqanların rəhbərləri;

10.1.7. inzibati vəzifələrin altıncı təsnifatı:

10.1.7.1. 3-cü kateqoriya dövlət orqanlarında mütəxəssis;

10.1.7.2. yerli icra hakimiyyəti (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) başçısının Aparatında struktur bölmə rəhbəri və onun müavini;

10.1.7.3. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanının yanında olan orqanların rəhbərlərinin müavinləri;

10.1.7.4. Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin yerli bölmələrinin rəhbərləri və onların müavinləri;

10.1.8. inzibati vəzifələrin yeddinci təsnifatı:

3. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin 22.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət qulluğu vəzifəsinin tutulması məqsədilə test imtahanında iştirak etmək üçün ödənişin və 22.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, dövlət qulluğu vəzifəsinin tutulması məqsədilə müsabiqənin müsahibə mərhələsində iştirak etmək üçünödənişin məbləğləriniüç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə və Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilsin ki, "Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2026-cı il 16 oktyabr tarixli 490-VIIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsinlər.

5. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi "Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2026-cı il 16 oktyabr tarixli 490-VIIQ nömrəli Qanunundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); 2024, № 5 (I kitab), maddə 526, № 7, maddə 805; 2025, № 2, maddə 124, № 7, maddə 632, № 9, maddə 817, № 12 (I kitab), maddə 1147; 2026, № 3, maddə 228,№ 7 (I kitab), maddə 666) ləğv edilsin.

7. "Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 iyul tarixli 729 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 397 (Cild I) ləğv edilsin.

8. "Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 fevral tarixli 28 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 66 (Cild I) ləğv edilsin.

9. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 avqust tarixli 614 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 762 (Cild I) ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr2026-cı il

Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16, № 2, maddə 110, № 3, maddə 209, № 4, maddələr 295, 300, № 5 (I kitab), maddələr 397, 403, № 6, maddə 492, № 7 (I kitab), maddələr 620, 625) aşağıdakı dəyişikliklər edilsin:

1. 233-cü maddə üzrə:

1.1. adında "və isti havalar" sözləri ", isti və küləkli hava" sözləri ilə əvəz edilsin;

1.2. 2-ci hissəyə "binalarda" sözündən sonra ", eləcə də küləkli havada açıq şəraitli iş yerlərində (o cümlədən həmin iş yerləri üzrə qurğularda)" sözləri əlavə edilsin.

2. Həmin Məcəlləyə 2-ci əlavə - "İlin soyuq vaxtında açıq havada və ya isidilməyən örtülü binalarda, habelə isti havalarda işin dayandırılması və işçilərə fasilələrin verilməsi şərtləri" üzrə:

2.1. adında "havalarda" sözü "və ya küləkli hava şəraitində" sözləri ilə əvəz edilsin;

2.2. 2-ci hissədə "Küləyin" sözü "Bu əlavənin "Qeyd" hissəsi nəzərə alınmaqla, küləyin" sözləri ilə əvəz edilsin və həmin hissəyə "quruda" sözündən sonra "istismar olunan" sözləri əlavə edilsin;

2.3. 8-ci hissədən sonra aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Küləyin gücü 6 baldan 8 baladək olduqda, quruda istismar olunan kranlarla işlərin görülməsinə həmin kranların texniki pasportlarında nəzərdə tutulmuş hallarda yol verilir. Küləyin gücü 8 baldan artıq olduqda qeyd edilən kranlarla görülən bütün növ işlər hər bir halda dayandırılır.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 oktyabr 2026-cı il

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1135 (Cild I); 2026, № 3, maddə 203, № 7 (I kitab), maddə 617) 3-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2.8-ci maddəyə "müşahidə" sözündən əvvəl "bu Qanunun 3.2.8-1-ci maddəsində qeyd edilən hüquqi şəxslər istisna olmaqla," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 3.2.8-1-ci və 3.10-1-ci maddələr əlavə edilsin:

"3.2.8-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və həmin orqanın (qurumun) idarəetməsinə verilən dövlət müəssisələri, habelə dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər, eləcə də onların təsisçisi və iştirakçısı (iştirak payına uyğun) olduğu hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaitləri, büdcə ssudaları, subsidiyalar, dövlət zəmanəti ilə alınmış kreditlər, dövlət qrantları, yardımları, büdcədənkənar dövlət fondlarının vəsaitləri istisna olunmaqla, digər maliyyə vəsaiti hesabına alınan mallar, işlər və ya xidmətlər;";

"3.10-1. Bu Qanunun 3.2.8-1-ci maddəsində nəzərdə tutulan hüquqi şəxslər tərəfindən malların, işlərin və ya xidmətlərin satın alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.".

3. 3.12-ci maddəyə "3.2.8-ci" sözlərindən sonra ", 3.2.8-1-ci" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 oktyabr 2026-cı il

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 23 oktyabr tarixli 497-VIIQD nömrəli Qanununun tətbiqi və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 23 oktyabr tarixli 497-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 3.2.8-1-ci və 3.10-1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 3.2.8-1-ci və 3.10-1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 23 oktyabr tarixli 497-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1174 (Cild I); 2025, № 7, maddə 652, № 11, maddə 1018; 2026, № 3, maddə 214, № 7 (I kitab), maddə 649; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 22 oktyabr tarixli 806 nömrəli Fərmanı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "3.2.8-ci (hər iki halda)," sözlərindən sonra "3.2.8-1-ci," sözləri, "3.10-cu (hər iki halda)," sözlərindən sonra "3.10-1-ci," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.12-1-ci bənd əlavə edilsin:

"1.12-1. həmin Qanunun 3.2.8-1-ci və 3.10-1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON) nəzərdə tutulur;".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

"Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 oktyabr tarixli 500-VIIQD nömrəli Qanununun tətbiqi və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 oktyabr tarixli 500-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun 15.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15.5-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun 15.5-ci maddəsinə uyğun olaraq, insanların həyat və sağlamlığı üçün təhlükəli hesab edilən və texniki tənzimləmənin şamil olunduğu malların bazardan geri çağırılması, dövriyyədən çıxarılması, götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi qaydalarını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 27 oktyabr tarixli 500-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1711 (Cild I); 2025, № 6, maddə 551) 2.1-ci və 2.3-cü bəndlərinə "15.2-ci," sözlərindən sonra "15.5-ci," sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu ərazilərində dövlət idarəetməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, davamlı inkişafın və ekoloji sabitliyin təmin edilməsi ilə bağlı Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu ərazilərində idarəetmə və nəzarət funksiyalarının icrasında iştirak edən dövlət orqanlarının (qurumlarının) koordinasiyalı fəaliyyətinin təşkili, bu sahədə fəaliyyətin səmərəliliyinin və çevikliyinin artırılması, rəqəmsal idarəetmə modellərinin tətbiqi, həmin ərazilərdə torpaqların effektiv idarə edilməsi, onların istifadəsinə və mühafizəsinə dövlət nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu ərazisində (adalar, məskunlaşdırılmış və məskunlaşdırılması nəzərdə tutulan, sənaye, energetika, liman, müdafiə və sərhəd mühafizəsi məqsədləri üçün istifadə olunan, eləcə də normativ hüquqi aktlarla müəyyən edilmiş digər xüsusi statuslu ərazilər istisna olmaqla) (bundan sonra - sahilboyu ərazi) torpaqların idarə olunması, istifadəsi və onların mühafizəsinin təşkili sahələrində vahid dövlət siyasətinin həyata keçirilməsi, habelə fəaliyyət istiqamətlərinə uyğun olaraq sahilboyu ərazidə idarəetmə və nəzarət sahələrində iştirak edən dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra - Xidmət) həvalə edilsin.

2. Sahilboyu ərazidə idarəetmənin təşkili məqsədilə Xidmətin işçilərinin say həddi 40 (qırx) ştat vahidi artırılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. altı ay müddətində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında və beynəlxalq təcrübə nəzərə alınmaqla, aşağıdakılara dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

3.1.1. sahilboyu ərazinin xüsusi statusa malik ərazi kimi müəyyən edilməsi, onun zonalaşdırılması və hüquqi rejiminin müəyyənləşdirilməsi, sahilboyu ərazidə ətraf mühitin mühafizəsi, iqtisadi sahələrin inkişafı, turizm, rekreasiya və digər fəaliyyət sahələrində dövlət orqanlarının (qurumlarının) idarəetmə və nəzarət funksiyalarının icrasında vahid yanaşmanın və koordinasiyalı idarəetmənin təşkili məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsinə;

3.1.2. torpaqların dövlət idarəetməsinin, onların istifadəsinə və mühafizəsinə dövlət nəzarətinin təkmilləşdirilməsi, qanunsuz zəbt hallarının qarşısının alınması, inzibati və cinayət məsuliyyəti tədbirlərinin gücləndirilməsi ilə bağlı normativ hüquqi aktların layihələrinə;

3.2. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su səthinin quru ilə təmas xəttinin mövcud vəziyyəti nəzərə alınmaqla, sahilboyu ərazinin sərhədlərini və ölçülərini, həmçinin sahilboyu ərazinin kağız üzərində və rəqəmsal formada qrafik təsvirini altı ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1 "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla Coğrafi İnformasiya Sistemləri (CİS) əsaslı aktual xəritələrin və məlumatların saxlanılmasını, habelə bu sahədə idarəetməni təmin edən informasiya sisteminin yaradılmasına dair təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. sahilboyu ərazidə torpaqların dövlət idarəetməsinin, o cümlədən istifadəyə (icarəyə) verilməsinin Xidmət tərəfindən "bir pəncərə" prinsipi əsasında Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçirilməsi ilə bağlı müvafiq tədbirlər görsün;

4.3. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə sahilboyu ərazidə idarəetmə və nəzarət sahələrində görülmüş işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu Fərmanın icrasından irəli gələn tədbirlərin (müşahidə sistemləri, yerlərdə monitorinqlərin keçirilməsi, söküntü, abadlıq və sanitar təmizlik işləri) həyata keçirilməsi və Xidmətin maddi-texniki təminatının möhkəmləndirilməsi məqsədilə zəruri maliyyə vəsaitinin ayrılmasına dair təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın icrasından irəli gələn məsələlərin dövlət büdcəsindən maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

"Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1679 (Cild I); 2025, № 6, maddə 522; 2026, № 8, maddə 776) aşağıdakı məzmunda 15.5-ci maddə əlavə edilsin:

"15.5. İnsanların həyat və sağlamlığı üçün təhlükəli hesab edilən və texniki tənzimləmənin şamil olunduğu malların bazardan geri çağırılması, dövriyyədən çıxarılması, götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydalara uyğun olaraq həyata keçirilir.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 oktyabr 2026-cı il

2027-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2027-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1000000 (bir milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 noyabr 2026-cı il

Ceyhun Bayramov ilə Ed Miliband arasında telefon danışığı olub

Noyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Birləşmiş Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Ed Miliband arasında telefon danışığı baş tutub.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Ed Milibəndi dövlət katibi vəzifəsinə təyin olunması münasibətilə bir daha təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

Telefon danışığı zamanı Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin cari vəziyyəti və inkişaf perspektivləri, habelə yüksəksəviyyəli siyasi dialoqun davam etdirilməsinin əhəmiyyəti müzakirə olunub.

Bu çərçivədə liderlər səviyyəsində sonuncu Avropa Siyasi Birliyi (EPC) Zirvə Toplantısı zamanı keçirilmiş görüşün, eləcə də "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin qəbul edilməsinin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyəti vurğulanıb. Sənədin əhatə etdiyi istiqamətlər üzrə əməkdaşlığın konkret məzmunla zənginləşdirilməsi və praktiki nəticələrin əldə olunması perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər həmçinin regional təhlükəsizlik məsələlərini müzakirə edib, Cənubi Qafqazda mövcud vəziyyət və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesi ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycanın regionda davamlı sülhün və sabitliyin təmin olunmasına, kommunikasiyaların açılmasına və iqtisadi əməkdaşlığın genişləndirilməsinə yönəlmiş səyləri barədə qarşı tərəfə məlumat verib.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər də müzakirə olunub.

İƏT çərçivəsində əməkdaşlıq imkanları ilə bağlı Azərbaycanın mövqeyi diqqətə çatdırılıb

Noyabrın 16-da Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının 30-cu iclasında Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda çıxış edən nazir müavini İƏT çərçivəsində əməkdaşlığın gücləndirilməsi, təşkilatın institusional inkişafı, iqtisadi-ticarət, nəqliyyat, enerji və rəqəmsallaşma sahələrində əməkdaşlıq imkanları ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdırıb.

Ötən il Xankəndidə keçirilmiş İƏT-in 17-ci Zirvə Görüşünün və ilk "İƏT Həftəsi"nin regional əməkdaşlığın inkişafına verdiyi töhfə qeyd olunub, əldə edilmiş razılaşmaların həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat, enerji və rəqəmsal infrastruktur layihələrinin regionda bağlantıların gücləndirilməsindəki roluna diqqət çəkilib. Həmçinin ölkəmizdə yerləşən İƏT təsisatlarının fəaliyyətinin dəstəklənməsinin vacibliyi bildirilib.

Nazir müavini eyni zamanda regionda davamlı sülh və sabitliyin təmin olunması istiqamətində Azərbaycanın səyləri, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı barədə məlumat verib.

İclasın sonunda "İslamabad Kommünikesi" adlı yekun sənəd qəbul edilib.

Səfər çərçivəsində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif İƏT-ə üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərlərini, o cümlədən Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovu qəbul edib.

Milli Məclisin iclasında

2027-ci ilin dövlət büdcəsi layihəsinin müzakirəsi başladı

Noyabrın 16-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.



İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyə 11 məsələ daxildir. Bunlardan 8-i 2027-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan sənədlərdir.

Gündəliyin birinci məsələsi olan "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə danışan Milli Məclisin Sədri bildirib ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmiz mühüm qlobal və regional proseslərin mərkəzində qalmaqda davam edir: "Bu il Azərbaycan dünyanın aparıcı dövlətləri ilə münasibətlərin inkişafı yolunda önəmli addımlar atmışdır. Amerika Birləşmiş Ştatları ilə Strateji tərəfdaşlıq haqqında Xartiya, Almaniya ilə İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə, habelə Birləşmiş Krallıq ilə Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə bu ölkələrlə münasibətləri keyfiyyətcə yeni səviyyəyə yüksəltmiş, uzunmüddətli əməkdaşlıq üçün əlavə imkanlar açmışdır. May ayında Bakı şəhəri Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasını, oktyabr ayında isə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 7-ci Zirvə görüşünü qəbul etmişdir. Bu tədbirlərdə Azərbaycan şəhərlərin bərpası ilə bağlı təcrübəsini təqdim etmiş, eləcə də regional təhlükəsizlik və əməkdaşlıq məsələlərinin müzakirəsinə töhfə vermişdir. Oktyabr ayında Bakıda keçirilən 7-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qarşılıqlı anlaşmanı möhkəmləndirmək və ümumi çağırışlara cavab tapmaq üçün müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrini bir araya gətirən ölkə kimi Azərbaycanın rolunu yenidən təsdiq etmişdir.

Noyabrın 8-də Vətən müharibəsində tarixi Zəfərimizin 6-cı ildönümünü qeyd etdik. Həmin gün Şuşada Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın görüşü keçirildi. Həmin görüş Azərbaycanla Türkiyənin müttəfiqliyinin möhkəm təməllər üzərində qurulduğunu bir daha nümayiş etdirdi", - deyə spiker Sahibə Qafarova bildirib.

Bu il ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələr arasında Yeni Azərbaycan Partiyasının VIII Qurultayının xüsusi yer tutduğunu deyən Milli Məclis Sədrinin sözlərinə görə, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev qurultayda söylədiyi proqram xarakterli nitqdə ölkəmizin tarixinin mühüm bir mərhələsinə yekun vurdu və yeni dövrdə dövlətimiz və cəmiyyətimiz qarşısında dayanan vəzifələrə nəzər saldı. Cənab Prezidentin çıxışında ölkəmizin öz qüvvələrinə arxalanmaqla gələcək inkişafının prioritetləri müəyyən edildi.

Milli Məclisin Sədri bildirib ki, bu il regionumuz ciddi sınaqlara məruz qaldı. Ölkəmizin yaxın ətrafında münaqişələrin davam etdiyi bir şəraitdə Azərbaycan təmkinli və məsuliyyətli davranış nümayiş etdirərək öz maraqlarını ardıcıl surətdə müdafiə etdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının ötən dövrdə ölkə iqtisadiyyatının dayanıqlığını qorumağa imkan verdiyini deyən spiker bununla əlaqədar bir neçə faktı diqqətə çəkib: "10 ay ərzində dövlət büdcəsi 4,8 milyard manat profisitlə icra olunmuşdur. Oktyabr ayının sonuna olan məlumata görə, ölkəmizin strateji valyuta ehtiyatları 89 milyard dollara yaxınlaşmışdır. Bu isə xarici dövlət borcundan təqribən 20 dəfə çoxdur. İlin mühüm yekunlarından biri Böyük qayıdışın davam etməsidir. Yaşayış məskənləri və infrastruktur bərpa edildikcə doğma yurduna qayıdan ailələrin sayı da artır. Sosial sahəyə də böyük diqqət yetirilir. İnsanların rifah halının daha da yaxşılaşdırılması, əhalinin gəlirlərinin artırılması üçün lazımi tədbirlər görülür".

Qeyd olunub ki, bu il əldə edilən nəticələr 2027-ci ilin büdcəsinin formalaşdırılması üçün əlverişli ilkin şərtləri təmin etmişdir. "Məmnunluqla qeyd olunmalıdır ki, gələn il üçün dövlət büdcəsinin gəlirləri 39 milyard 254 milyon manat məbləğində proqnozlaşdırılmışdır. Bu, cari ilin proqnozu ilə müqayisədə 645 milyon manat çoxdur. Dövlət büdcəsinin xərcləri isə 42,4 milyard manat olacaqdır. Bu da cari illə müqayisədə təqribən 696 milyon manat çoxdur," - deyə Sahibə Qafarova bildirib.

Spiker deyib ki, gələn il büdcə xərclərinin prioritetləri arasında iqtisadi artımın dəstəklənməsi və əhalinin sosial müdafiəsinin, xüsusən həssas təbəqələrin sosial təminatının daha da gücləndirilməsi əsas yer tutur. Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, sərhədlərinin toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, hərbçilərin xidmət şəraitinin və sosial təminatının yaxşılaşdırılması yenə də diqqət mərkəzində olacaqdır.

İşğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və bərpa olunması, habelə əhalinin doğma yurdlarına qaytarılması davam etdiriləcəkdir. Süni intellekt texnologiyalarının tətbiqi, təmiz ətraf mühitin və "yaşıl artım"ın təmin olunması da büdcənin prioritetləri sırasındadır.

Spiker Azərbaycan hökumətinin səmərəli fəaliyyətinin büdcə siyasətinin bütün istiqamətlərində qarşıya qoyulan hədəflərin əldə olunmasını təmin edəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin Sədri bildirib ki, 2027-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Qeyd edib ki, son illərdə yaranmış ənənəyə uyğun olaraq, parlamentdə təmsil edilən siyasi partiyaların rəhbərləri və nümayəndələri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasına da dəvət olunublar. İclasda onların hər birinə öz fikirlərini ifadə etməsi üçün şərait yaradılıb. Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini açıqlayıb.

Çıxışına yekun vuran Milli Məclisin Sədri aparılacaq müzakirələrin səmərəli olacağına, deputatların öz fikirlərini və təkliflərini səsləndirəcəklərinə inamını bildirib və millət vəkillərini müzakirələrdə fəal iştiraka dəvət edib.

Sonra çıxış edən parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilmiş 2027-ci ilin dövlət büdcəsi zərfi dövlət başçımızın strateji təşəbbüslərini, sosial-iqtisadi inkişafın əsas hədəflərini, yeni dövrün çağırışlarını özündə əks etdirir və onların reallaşdırılması üçün etibarlı maliyyə təminatı yaradır.

Komitə sədri qeyd edib ki, Azərbaycan bu gün regional proseslərə təsir göstərən, müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu əməkdaşlıq edən, çoxtərəfli platformalarda və beynəlxalq təşəbbüslərdə fəal iştirak edən, qlobal siyasi arenada orta güc statusuna malik nüfuzlu dövlət olaraq tanınır. İqtisadi müstəvidə isə Azərbaycan yalnız strateji enerji resurslarına malik ölkə deyil, həm də həmin resursları regional əməkdaşlığın və iqtisadi inteqrasiyanın mühüm vasitəsinə çevirən, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edə bilən, iqtisadi müstəqilliyinə ciddi önəm verən dövlətdir.

Bildirilib ki, ümumi həcmi 89,4 milyard dollara çatan strateji valyuta ehtiyatlarımız makroiqtisadi sabitliklə bərabər Azərbaycan dövlətinin milli maraqlarımıza uyğun qəbul etdiyi suveren qərarları da dəstəkləyir. Eyni zamanda maliyyə təhlükəsizliyinin yalnız ehtiyatların həcmi ilə deyil, həmin ehtiyatların qorunmasına xidmət edən məsuliyyətli fiskal siyasətlə də təmin olunduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, qeyri-neft sektorunun büdcə gəlirlərində payının 60 faizi keçməsi, o cümlədən Neft Fondundan büdcəyə transfertin tədricən azaldılması, növbəti ildə cari xərclərin 90 faizinin qeyri-neft gəlirləri hesabına qarşılanması hədəfi və büdcə qaydasına ciddi riayət edilməsi bunu bir daha təsdiqləyir.

Qeyd edilib ki, 2027-ci ilin büdcə zərfində neftin 1 barelinin orta illik qiyməti 65 dollar səviyyəsində götürülüb. Büdcə layihəsində əsaslı xərclərə 13,8 milyard manat, o cümlədən dövlət investisiyalarına 5,3 milyard manat vəsait nəzərdə tutulması fiskal dayanıqlıq üçün iqtisadi əsasların yaradılmasına xidmət edir. Növbəti ilin proqnozlarına əsasən, icmal büdcənin xərclərinin 50 milyard manatı, dövlət büdcəsi xərclərinin isə ümumi daxili məhsulda payının 30 faizi ötməsi dövlətin maliyyə imkanlarının kifayət qədər yüksək olduğunu göstərir. Diqqətə çatdırılıb ki, post müharibə dövrünü yaşamış digər ölkələrdən fərqli olaraq, dövlətimiz "Böyük qayıdış" proqramını yalnız özü maliyyələşdirir. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üçün 2020-2026-cı illərdə dövlət büdcəsindən 25 milyard manatdan çox vəsait ayrılıb, 2027-ci ildə isə 3,4 milyard manat nəzərdə tutulur.

Komitə sədrinin sözlərinə görə, büdcə zərfi dövlətin sosial siyasətinin növbəti ildə daha da güclənəcəyindən xəbər verir. Xərclərin 18,7 milyard manatının və ya 44,2 faizinin sosialyönümlü olması bunu bir daha təsdiq edir. Bununla yanaşı, 2027-ci ildə müdafiə və milli təhlükəsizlik xərclərinə 8,8 milyard manat, iqtisadi fəaliyyətlə bağlı xərclərə 8,9 milyard manat yönəldiləcək. Həmçinin qeyd edilib ki, büdcə zərfi həm də dayanıqlı inkişaf prinsipinə əsaslanır. Neft Fondundan dövlət büdcəsinə transfertlərin son illər azaldılması bir tərəfdən fiskal dayanıqlığa, digər tərəfdən də neft gəlirlərinin gələcək nəsillər üçün qorunub saxlanılmasına xidmət edir.

Son illərdə dövlət maliyyəsinin idarə olunması sistemində institusional islahatlara başlanıldığını, büdcə siyasətinin keyfiyyətcə yeni mərhələyə keçdiyini söyləyən Azər Əmiraslanov, hazırda maliyyə intizamının gücləndirilməsi, fiskal dayanıqlığın təmin edilməsi istiqamətində ardıcıl tədbirlərin görüldüyünü bildirib. O, perspektiv dövrdə büdcə prosesi və fiskal siyasətin həyata keçirilməsi ilə bağlı bəzi təkliflərini səsləndirib. Bildirilib ki, büdcə siyasətində əsas hədəf maliyyə dayanıqlığını qorumaqla yanaşı, həm də davamlı iqtisadi inkişafı təmin etməkdir. Komitə sədri xarici borcun ümumi dövlət borcundakı payının ortamüddətli perspektivdə mərhələli azaldılması və daxili borcla əvəz edilməsi strategiyasının davam etdiriləcəyini bildirib. Növbəti illərdə iqtisadi fəallığın yüksəldilməsi, büdcə gəlir və xərclərinin real olaraq artımının təmin edilməsi baxımından fiskal parametrlərin inflyasiya və iqtisadi artım tempi ilə daha sıx uzlaşdırılmasının vacibliyindən söz açıb. O, fiskal konsolidasiya siyasəti ilə nəticə əsaslı büdcəyə keçid arasında daha sıx əlaqə yaradılmasından danışıb. Büdcənin təsdiq edilmiş parametrləri ilə onun faktiki icrası arasında uyğunluğun təmin olunmasının əhəmiyyətini qeyd edib. O da diqqətə çatdırılıb ki, 2027-ci ilin dövlət büdcəsində kənd təsərrüfatına ayrılan vəsaitlərin həcmi 12,5 faiz və ya 153 milyon manat artaraq təxminən 1 milyard 380 milyon manat təşkil edib. Bu, 2027-ci ildə iqtisadi fəaliyyət xərclərindən sonra ən yüksək artım tempinə malik olan xərc istiqamətidir.

İclasda maliyyə naziri Sahil Babayev çıxış edərək "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, 2027-ci il üçün ÜDM-in 2,7 faiz artımla 141 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. İqtisadiyyatın diversifikasiyası və qeyri-neft sektorunun dinamik inkişafı nəticəsində ÜDM-in 77,4 faizi, yaxud 109,1 milyard manatı qeyri-neft sektorunun payına düşəcək. Monetar və fiskal siyasətin sıx əlaqələndirilməsi nəticəsində növbəti ildə də manatın məzənnəsi sabit saxlanılmaqla 1,7 manat, illik inflyasiya isə 5,3 faiz proqnozlaşdırılır. 2027-ci il üçün "Azeri Light" markalı xam neftin bir barelinin dünya bazarlarındakı satış qiyməti orta hesabla 65 ABŞ dolları səviyyəsində proqnozlaşdırılıb. Cari ilin 1 oktyabr tarixinə ölkənin məcmu valyuta ehtiyatları 89,4 milyard ABŞ dolları təşkil edir. Dövlət borcu isə 23,9 milyard manat və ya illik ÜDM-in 17,3 faizi səviyyəsində olub.

Maliyyə nazirinin sözlərinə görə, iqtisadiyyatın diversifikasiyası və qeyri-neft istehsalının stimullaşdırılmasının nəticəsində növbəti ildə də neftdən asılılığın azalması tendensiyası qorunur. Belə ki, 2027-ci il üçün icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi cari illə müqayisədə 1,7 faiz az olmaqla 17,1 faiz proqnozlaşdırılır. Bu, fiskal qayda tətbiq ediləndən bəri ən yaxşı göstəricidir. 2027-ci ildə icmal büdcədə qeyri-neft gəlirlərinin payı 64,5 faizə, dövlət büdcəsində payı isə 60,6 faizə çatacaq. Bu, cari illə müqayisədə müvafiq olaraq 1,5 və 3,2 faiz çoxdur. Büdcədə qeyri-neft gəlirlərinin payının artması cari xərclərin qeyri-neft gəlirləri ilə örtülmə nisbətinə öz müsbət təsirini göstərir. 2027-ci il üçün dövlət büdcəsinin investisiyayönümlü olduğunu deyən nazir qeyd edib ki, növbəti ildə dövlət büdcəsinin əsaslı xərcləri büdcə xərclərinin 32,5 faizinə bərabər olacaq. Həmçinin növbəti ildə bütün rayonlarımız öz gəlirləri hesabına öz xərclərini tam qarşılayacaq. İlk dəfə olaraq dotasiyadan asılı hər hansı bir rayonumuz qalmayacaq. Naxçıvan Muxtar Respublikasının isə öz gəlirlərini daha da artırması növbəti ildə muxtar respublikaya veriləcək dotasiyanın 6,4 faiz azalmasına imkan yaradacaq.

Sonra Sahil Babayev dövlət və icmal büdcələrin gəlir və xərcləri barədə məlumatı təqdim edib. Nəzərə çatdırılıb ki, 2027-ci il üçün dövlət büdcəsinin gəlirləri 39,3 milyard manat həcmində proqnozlaşdırılır. Dövlət büdcəsi gəlirlərinin 23,8 milyard manatı və ya 60,6 faizi qeyri-neft sektoru üzrə daxilolmaların, 15,5 milyard manatı və ya 39,4 faizi neft-qaz sektoru üzrə daxilolmaların payına düşür. Növbəti il üçün gəlirlərin 18,4 milyard manatı və ya 47 faizi Dövlət Vergi Xidməti vasitəsilə daxilolmaların payına düşür. Həmin daxilolmaların 14,9 milyard manatı qeyri-neft sektorundan, 3,6 milyard manatı isə neft-qaz sektorundan təmin ediləcək. Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar isə 6,9 milyard manat və ya büdcə gəlirlərinin 17,5 faizi həcmində proqnozlaşdırılır. Dövlət Neft Fondundan transfertin həcmi 11,9 milyard manat və ya büdcə gəlirlərinin 30,3 faizi həcmində olacaq. Büdcə gəlirlərinin 872 milyon manatı dövlət müəssisələrindən alınan dividendlərin, 949 milyon manatı ödənişli xidmətlər üzrə daxilolmaların, 484 milyon manatı sair gəlirlərin hesabına təmin ediləcək.

Bildirilib ki, növbəti il üçün dövlət büdcəsi xərclərinin 42,4 milyard manat olması proqnozlaşdırılır. Dövlət büdcəsi xərclərinin 26,4 milyard manatı və ya 62,3 faizi cari xərclərə, 13,8 milyard manatı və ya 32,5 faizi əsaslı xərclərə, 2,2 milyard manatı və ya 5,2 faizi dövlət borcuna xidmətlə bağlı xərclərə yönəldiləcək.

Dövlət büdcəsinin funksional təsnifatı üzrə məlumatda qeyd edilib ki, növbəti ildə müdafiə və milli təhlükəsizlik xərcləri dövlət büdcəsi xərclərinin 20,8 faizi həcmində və ya 8,8 milyard manat məbləğində proqnozlaşdırılır. Dövlət büdcəsi xərclərinin 18,7 milyard manatı sosialyönlü xərclərin maliyyələşdirilməsi üçün nəzərdə tutulur. Sosial müdafiə və sosial təminat xərcləri üçün dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. İcmal büdcənin sosial müdafiə və sosial təminat xərcləri isə 12,9 milyard manat proqnozlaşdırılır. Bildirilib ki, səhiyyə xərcləri üçün dövlət büdcəsindən 2,1 milyard manat vəsait ayrılacaq. İcmal büdcənin səhiyyə xərcləri isə 4 milyard manat olacaq. Dövlət büdcəsində təhsil və elm xərcləri üçün büdcə xərclərinin 12,6 faizi həcmində və ya 5,4 milyard manat vəsait proqnozlaşdırılır. Kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı növbəti il dövlət büdcəsindən 1,4 milyard manat ayrılacaq. Qeyri-neft sektorunda investisiyaların və iqtisadi artımın dəstəklənməsi məqsədilə dövlət əsaslı vəsait qoyuluşu xərcləri üçün 5,3 milyard manat vəsait müəyyən edilib. Bu çərçivədə işğaldan azad edilmiş ərazilərimizin bərpası üçün maliyyə təminatı tam şəkildə nəzərdə tutulur. Dövlət borcuna xidmətlə bağlı xərclər üçün 2,2 milyard manat vəsait sərf ediləcək. Həmçinin 2027-ci ildə ölkə daxilində və xaricində beynəlxalq tədbirlərin keçirilməsi üçün 231 milyon manat, səfirlik və diplomatik nümayəndəliklərin xərcləri üçün 230 milyon manat, beynəlxalq maliyyə institutlarının səhm kapitalında iştiraka görə 67,5 milyon manat, xaricdəki mədəniyyət mərkəzlərinin və ticarət nümayəndəliklərinin saxlanılması üçün 21,7 milyon manat və sair istiqamətlər üzrə təxsisatlar da əks olunub. Gələn ildə dövlət büdcəsinin yerli xərcləri 735,6 milyon manat proqnozlaşdırılır. 2027-ci il üzrə dövlət büdcəsinin kəsiri 3,1 milyard manat, yaxud ÜDM-in 2,2 faizi səviyyəsində gözlənilir.

Maliyyə naziri növbəti il üçün icmal büdcənin göstəricilərini də diqqətə çatdırıb. Bildirilib ki, icmal büdcənin gəlirləri 47,6 milyard manat həcmində proqnozlaşdırılır. İcmal büdcə gəlirlərinin 64,5 faizini və ya 30,7 milyard manatını qeyri-neft sektoru üzrə daxilolmalar, 35,5 faizini və ya 16,9 milyard manatını neft-qaz sektoru üzrə daxilolmalar təşkil edəcək. Növbəti il üçün icmal büdcənin xərcləri 50,4 milyard manat həcmində proqnozlaşdırılır. İcmal büdcə xərclərinin ÜDM-də payı 35,7 faizə, qeyri-neft ÜDM-də payı isə 46,2 faizə bərabər olacaq. İcmal büdcənin kəsiri isə 2,8 milyard manat həcmində proqnozlaşdırılır.

Qeyd edilib ki, icmal büdcənin tərkibində Dövlət Neft Fondunun növbəti il üçün gəlirləri 13,3 milyard manat, xərcləri isə 12,1 milyard manat məbləğində nəzərdə tutulur. Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 9,2 milyard manat, xərcləri isə 9,3 milyard manat, İcbari Tibbi Sığorta Fondunun gəlirləri 2,3 milyard manat, xərcləri 3 milyard manat, İşsizlikdən Sığorta Fondunun gəlirləri 268,9 milyon manat, xərcləri isə 319,2 milyon manat təşkil edəcək. Növbəti il üçün Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 510 milyon manat məbləğində müəyyən edilib.

Sonra iclasda iqtisadiyyat naziri Mikayıl Cabbarov çıxış edib. O, dünyada müşahidə olunan mürəkkəb proseslərdən söz açaraq, Prezident İlham Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində ölkəmizin keçdiyi inkişaf yolunu xüsusi qeyd edib. Nazir 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyası dövründə iqtisadiyyatda kəmiyyət artımı ilə yanaşı, keyfiyyət dəyişikliklərinin də baş verdiyini söyləyib. Nəzərə çatdırılıb ki, iqtisadiyyatın neft-qaz sektorundan asılılığı ardıcıl olaraq azalır. Son illərdə olduğu kimi, cari ilin 10 ayında da ÜDM-in artımı bütövlükdə qeyri-neft-qaz sektoru hesabına təmin olunub. Ölkə iqtisadiyyatı ümumi daxili məhsulla yanaşı, ümumi milli gəlirin artımı ilə də xarakterizə olunur. Belə ki, hazırda Azərbaycan şirkətləri beynəlxalq bazarlara çıxır, xaricdə aktivlər əldə edir və bu aktivlər əlavə dəyər və əlavə gəlir mənbəyinə çevrilir. Habelə, dövlət şirkətlərinin fəaliyyətində mühüm keyfiyyət dəyişikliyinin baş verdiyi söylənilib, bu gün bir sıra dövlət şirkətlərinin səmərəli fəaliyyəti, o cümlədən büdcəyə dividend daxilolmaları aparılan islahatların nəticəsi kimi dəyərləndirilib. Bununla yanaşı, qeyri-neft-qaz sənayesi, nəqliyyat-logistika və rəqəmsal xidmətlər sektorlarının artımın aparıcı sahələrinə çevrildiyi qeyd olunub.

Bildirilib ki, mühüm struktur dəyişikliklərindən biri də iqtisadiyyatın şəffaflaşması ilə bağlıdır. Belə ki, cari ilin 10 ayında qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 13 faizdən çox artıb ki, bu da qeyri-neft-qaz ÜDM-in nominal artım tempini üstələyir. 2018-ci ildən bəri aktiv vergi ödəyicilərinin sayı 2 dəfə, əlavə dəyər vergi ödəyicilərinin sayı 3,5 dəfə, aktiv obyektlərin sayı isə 1,7 dəfə artıb. 2019-cu ilin əvvəlindən bu günədək qeyri-neft-qaz özəl sektorunda bağlanmış əmək müqavilələrinin sayı isə iki dəfədən çox artıb və hazırda ümumi əmək müqavilələrinin 57 faizi bu sektorun payına düşür. Təkcə cari ilin 10 ayında bu sektorda əmək müqavilələrinin sayı 49 minədək artıb.

Qeyd edilib ki, 2026-cı ilin gözlənilən nəticəsi nəzərə alınmaqla, qeyri-neft-qaz ixracı 2018-ci illə müqayisədə 2,5 dəfə çox olacaq. Cari ilin 10 ayında qeyri-neft-qaz ixracı 20 faizdən çox artaraq 3,6 milyard dollara çatıb, onun 61 faizini sənaye məhsulları təşkil edir. Cari ilin nəticəsinə görə, qeyri-neft-qaz mal ixracımızın həcmi 4,2 milyard ABŞ dollarını üstələyəcək. İxracın və istehsalın daha da genişləndirilməsi məqsədilə cari ildə yeni dəstək tədbirləri paketi qəbul edilib və onun tətbiqinə başlanılıb.

Nazirin sözlərinə görə, qarşıdakı dövr üçün makroiqtisadi proqnozlar qlobal qeyri-müəyyənlik nəzərə alınmaqla hazırlanıb. Proqnozlarda büdcə siyasətində son illərdə həyata keçirilən fiskal optimallaşdırılma prinsipi əsas götürülüb. Bunlara əsaslı xərclərin səmərəliyinin artırılması, resurslardan qənaətlə istifadə və daha az xərclə daha yüksək nəticənin əldə edilməsi aid edilə bilər. Qeyd edilib ki, dövlət xərclərinin optimallaşdırılması şəraitində növbəti dövrlərdə iqtisadi artım özəl sektora və özəl investisiyalara söykənəcək. Cari ilin 10 ayında qeyri-neft-qaz sektorunda özəl investisiyalar 18 faizədək artıb. Bu meylin davamlı olması üçün iqtisadi artımın yeni mənbələrinin işə salınması tələb olunur. Bildirilib ki, bu baxımdan yerli istehsalı mövcud olan və ya yaradıla bilən məhsullar üzrə dövlət satınalmalarının yerli istehsala yönəldilməsi mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə müvafiq tədbirlər görülür. Bununla yanaşı, daxili bazarın həcmi nəzərə alınmaqla ixracyönümlü inkişafın sürətləndirilməsinin strateji vəzifələrdən olduğu söylənilib.

Nazir Milli Məclisə təqdim edilən dövlət büdcəsi paketinin ölkənin sosial-iqtisadi inkişaf strategiyasında qarşıya qoyulan əsas hədəflərin ardıcıl şəkildə həyata keçirilməsinə xidmət etdiyini vurğulayıb.

Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxışında bildirib ki, proqnozlara görə, növbəti ildə ölkədə ÜDM-in 2,3 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,3 faiz artacağı gözlənilir. Mərkəzi Bankın valyuta ehtiyatları cari ilin 10 ayında 3,9 mlrd. ABŞ dolları və ya 34 faiz artaraq 15,4 mlrd. ABŞ dollarına çatıb. Bu da Azərbaycanın müstəqillik tarixində maksimal səviyyədir.

Taleh Kazımov gələn ilin büdcə layihəsi ilə bağlı bildirib ki, ümumilikdə, növbəti il və ortamüddətli dövr üzrə təqdim edilmiş dövlət və icmal büdcə layihələri ölkənin makroiqtisadi sabitlik və iqtisadi inkişaf hədəfləri ilə uzlaşır. O, büdcə paketinin bir sıra mühüm müsbət məqamlarını xüsusi vurğulayaraq bildirib ki, cari xərclərin qeyri-neft-qaz gəlirləri hesabına maliyyələşdirilməsi səviyyəsinin yüksəldilməsi cari öhdəliklərin daha dayanıqlı mənbələr hesabına təmin edilməsinə xidmət edir.

Eyni zamanda Neft Fondundan transfertlərin azaldılması strateji valyuta aktivlərinin qorunması baxımından əhəmiyyətlidir. Mərkəzi Bankın sədri 2027-ci ildə gözlənilən büdcə xərclərinin inflyasiyaya təsirinin cari xərclər üzrə cəmi 0,34 faiz bəndi olmasını də müsbət göstərici kimi vurğulayıb.

2027-ci il üzrə Mərkəzi Bankın monetar siyasətinin prioritetləri barədə danışan Taleh Kazımov deyib ki, növbəti ildə də məzənnə sabitliyinin təmin edilməsi əsas hədəf olacaq. O, Mərkəzi Bankın 2027-ci il üzrə maliyyə sektorunun inkişafı planları və maliyyə sabitliyi siyasəti barədə məlumat verib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov gələn ilin dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini təqdim edib. Bildirilib ki, 2027-ci ilin dövlət büdcəsinin layihəsi ötən dövrün reallıqları və qarşıdakı dövrün çağırışları nəzərə alınmaqla hazırlanıb. O, layihənin mühüm xüsusiyyətlərinə diqqət çəkərək qarşıdakı ilin dövlət büdcəsini neft asılılığının azaldılması baxımından dönüş nöqtəsi və eyni zamanda hərbi, sosial, investisiya xərclərinin optimal sintezi kimi xarakterizə edib.

Palata sədri diqqətə çatdırıb ki, "Büdcə zərfi"nə daxil olan sənəd və göstəricilər qanunvericiliyə uyğun hazırlanıb, büdcə parametrləri əsasən düzgün və etibarlı təqdim edilib. O həmçinin layihənin ölkənin fiskal dayanıqlığının qorunması və dövlət maliyyəsinin səmərəli idarə olunması baxımından əlverişli çərçivə yaratdığını vurğulayıb.

Palata sədri çıxışında xərclərin səmərəli planlaşdırılması, büdcə və maliyyə hesabatlığı ilə bağlı Hesablama Palatasının təklif və tövsiyələrini diqqətə çatdırıb.

Məsələ ətrafında müzakirələrdə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Sadiq Qurbanov, Zahid Oruc, Fazil Mustafa, deputatlar Kamal Cəfərov, Jalə Əliyeva, Ceyhun Məmmədov, Aydın Hüseynov, Hikmət Məmmədov, Azay Quliyev, Sahib Alıyev, Azər Badamov, Kamran Bayramov, Məlahət İbrahimqızı, Elman Nəsirov, Nurlan Həsənov, Rəşad Mahmudov, Müşfiq Məmmədli, Vasif Qafarov, Soltan Məmmədov, Novruzəli Aslanov, Müşfiq Cəfərov, Elçin Mirzəbəyli, Vüqar İskəndərov çıxış ediblər.

Çıxışlarda 2027-ci ilin dövlət büdcəsinin sosialyönümlü xarakter daşıdığı, əsas prioritetlərdən birinin vətəndaşların sosial rifahının yüksəldilməsi və həyat səviyyəsinin yaxşılaşdırılması olduğu vurğulanıb. Bildirilib ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, milli təhlükəsizliyin və suverenliyin qorunması ilə yanaşı, elm, təhsil və səhiyyə sahələrinin maliyyələşdirilməsinin artırılması da diqqət mərkəzində saxlanılacaq. Eyni zamanda iqtisadiyyatın şaxələndirilməsi, investisiya layihələrinin genişləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi və yeni iqtisadi imkanların yaradılması gələn ilin büdcə siyasətinin mühüm istiqamətləri kimi qeyd olunub.

2027-ci ilin dövlət büdcəsi layihəsinin müzakirələri noyabrın 17-də davam etdiriləcək.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Leyla Əliyeva COP31-də Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Tullantı Fondunun birgə pavilyonunda olub, bir sıra ekspertlərlə görüşüb









Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alyona Əliyeva Türkiyənin Antalya şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində noyabrın 13-də Heydər Əliyev Fondu ilə Türkiyənin Sıfır Tullantı Fondunun birgə təşəbbüsü əsasında yaradılan pavilyonda olublar.

AZƏRTAC xəbər verir ki, pavilyonla tanış olan Leyla Əliyevaya və Alyona Əliyevaya burada nümayiş etdirilən stendlər və təqdim olunan layihələr barədə məlumat verilib.

Sonra ərazidə açılan digər pavilyonlara baxış keçirilib.

Xatırladaq ki, birgə pavilyonun yaradılması ideyası ilk dəfə 2024-cü ildə Bakıda keçirilən COP29 zamanı yaranıb. Həmin konfrans çərçivəsində təşkil edilən pavilyon ən çox ziyarət edilən pavilyonlardan biri olub.

Pavilyonda Heydər Əliyev Fondunun sosial, mədəniyyət, təhsil, səhiyyə, yenidənqurma və bərpa, ətraf mühitin mühafizəsi, multikulturalizm və digər istiqamətlərdə həyata keçirdiyi layihələr foto və videomateriallar vasitəsilə təqdim olunur.

Burada hər iki fondun fəaliyyətinə dair müxtəlif materiallarla yanaşı, interaktiv layihələr də nümayiş etdirilir.

* * *

Leyla Əliyeva və Alyona Əliyeva, həmçinin Özbəkistan pavilyonunda olublar. "Üzüm bağı: keçmişin irsi, bu günün həlli və gələcəyin ilhamı" konsepsiyası əsasında qurulan pavilyonla tanış olan Leyla Əliyevaya və Alyona Əliyevaya bərpaolunan enerji, su ehtiyatlarının qorunması, biomüxtəlifliyin mühafizəsi və ekoloji maarifləndirmə sahəsində həyata keçirilən təşəbbüslər və layihələr barədə məlumat verilib.

* * *

Sonra Leyla Əliyeva COP31 çərçivəsində bir sıra beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələri və ətraf mühitin mühafizəsi üzrə ekspertlərlə görüşlər keçirib.

Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) iqlim və enerji məsələləri üzrə qlobal rəhbəri Manuel Pulqar-Vidal ilə görüşdə IDEA ilə WWF arasında əməkdaşlıq çərçivəsində Qafqaz bəbirinin mühafizəsi, ceyranların və Avropa bizonlarının Azərbaycanda tarixi yaşayış ərazilərinə qaytarılması istiqamətində həyata keçirilən birgə layihələrə toxunulub. Eyni zamanda biomüxtəlifliyin qorunması, nadir heyvan növlərinin populyasiyalarının və ekosistemlərin bərpası sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

Bununla yanaşı, Leyla Əliyeva COP31 çərçivəsində IDEA İctimai Birliyinin təşəbbüsü ilə təşkil olunan tədbirlərdə iştirak edən bir sıra digər beynəlxalq ekspertlər, alimlər və təbiəti mühafizə təşkilatlarının nümayəndələri ilə də görüşərək fikir mübadiləsi aparıb.

Görüşlər zamanı Xəzər dənizinin ekoloji problemləri, iqlim dəyişmələrinin biomüxtəlifliyə təsiri, təbii ekosistemlərin qorunması, elmi tədqiqatların genişləndirilməsi və beynəlxalq təcrübənin paylaşılması məsələlərinə toxunulub.

COP31-də türk dünyası qadınlarının iqlim təşəbbüslərinə dair fikir mübadiləsi aparılıb

Leyla Əliyeva "Qadınlar və iqlim investisiyaları: türk dünyasında qadın liderlərin iqlim fəaliyyətinə töhfə vermək imkanlarının genişləndirilməsi" mövzusunda tədbirdə iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Türkiyənin Antalya şəhərində davam edən COP31 çərçivəsində Azərbaycan pavilyonunda keçirilən "Qadınlar və iqlim investisiyaları: türk dünyasında qadın liderlərin iqlim fəaliyyətinə töhfə vermək imkanlarının genişləndirilməsi" mövzusunda panel iclasda iştirak edib.





AZƏRTAC xəbər verir ki, tədbirin açılışında çıxış edən Leyla Əliyeva qadınların cəmiyyətin həyatında oynadıqları rolun və onların potensialının inkişaf etdirilməsinin əhəmiyyətindən danışıb. O, türk dövlətləri arasında bu istiqamətdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Leyla Əliyeva IDEA İctimai Birliyinin layihələrində qadınların fəal iştirakını qeyd edərək, xüsusilə bölgələrdə reallaşdırılan təşəbbüslərin qadınlar üçün yeni imkanlar yaratdığını bildirib.

Paneldə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Türkiyənin ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş, ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva çıxış ediblər.

Çıxışlarda iqlim dəyişikliyi ilə mübarizədə qadınların iqtisadi fəallığının artırılması, iqlim investisiyalarına çıxış imkanlarının genişləndirilməsi və qərar qəbuletmə prosesində iştirakının təmin edilməsi əsas məsələlər kimi dəyərləndirilib. Həmçinin türk dünyasında qadın sahibkarlar arasında əməkdaşlığın, təcrübə mübadiləsinin və birgə innovativ təşəbbüslərin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Leyla Əliyeva Qaraçuxur İdman Zalının açılışında iştirak edib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 16-da Bakının Suraxanı rayonunda Qaraçuxur İdman Zalının açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov Leyla Əliyevaya idman zalında yaradılmış şərait barədə məlumat verib.

Bildirilib ki, Qaraçuxur İdman Zalının tikintisinə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" əsasında başlanılıb.

İdman zalının ərazisi 0,27 hektar, tikintialtı sahəsi 987, ümumi sahəsi isə 1115 kvadratmetrdir. Baş plana əsasən, ərazidə ikimərtəbəli idman zalı binası, açıq hava idman meydançası, uşaqlar üçün minifutbol meydançası və yer tipli şahmat sahəsi inşa edilib.

Açıq hava idman meydançası ətraf ərazidə yaşayan sakinlərin, o cümlədən uşaqların və gənclərin bədən tərbiyəsi və idmanla gündəlik məşğul olmaları üçün müvafiq avadanlıqlarla təchiz edilib.

İkimərtəbəli idman zalının birinci mərtəbəsində 30x18 metr ölçüdə, 25 tamaşaçı yeri olan universal zal fəaliyyət göstərəcək. Burada gimnastika, güləş, taekvondo, karate, cüdo, badminton, uşaq voleybolu və basketbol idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi mümkün olacaq.

İkinci mərtəbədə aerobika və rəqs məşqləri üçün zal, həmçinin trenajor zalı fəaliyyət göstərəcək. Zalda paltardəyişmə və duş otaqları, məşqçilər üçün otaq, həkim otağı və digər inzibati otaqlar yaradılıb. Binanın birinci mərtəbəsində kafenin də fəaliyyəti nəzərdə tutulub.

Leyla Əliyeva COP31 çərçivəsində bir sıra görüşlər keçirib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 14-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Səlim bin Məhəmməd əl-Malik ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüş zamanı IDEA İctimai Birliyi ilə ICESCO arasında əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub. Bu xüsusda azərbaycanlı gənclərin ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf sahələrində beynəlxalq təcrübə qazanmaları üçün yeni imkanların yaradılması məsələsinə toxunulub.

Eyni zamanda məktəblərdə ekoloji təhsilin təşviqi, yaşıllaşdırma, tullantıların çeşidlənməsi, suya qənaət və enerji səmərəliliyi istiqamətində birgə təşəbbüslərin həyata keçirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə gənclərin iştirakı ilə ölkəmizdə beynəlxalq ekoloji yay düşərgələrinin təşkili və biomüxtəlifliyin mühafizəsi sahəsində birgə maarifləndirmə layihələrinin icrası imkanları da nəzərdən keçirilib.

Bununla yanaşı, gənclərin ekoloji innovasiyalar sahəsində fəaliyyətinin dəstəklənməsi, hava çirklənməsi, tullantıların idarə olunması, su ehtiyatlarının qorunması və iqlim dəyişmələrinə uyğunlaşma üzrə innovativ həllərin hazırlanmasına yönəlmiş birgə fəaliyyətlərin həyata keçirilməsi perspektivləri müzakirə edilib.

* * *

Leyla Əliyeva noyabrın 14-də, həmçinin "Blue Marine" Fondunun mühafizə olunan dəniz əraziləri üzrə qlobal eksperti Maks Bello və "Great Whale Conservancy" təşkilatının təsisçisi və icraçı direktoru Maykl Fişbax ilə görüşüb.

Görüşdə Xəzər dənizinin səviyyəsinin azalmasının dəniz ekosisteminə, biomüxtəlifliyə və sahilyanı ərazilərə təsirləri, eləcə də mövcud ekoloji çağırışların həlli istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olunub.


Eyni zamanda Azərbaycanda mühafizə olunan dəniz ərazilərinin genişləndirilməsi, Xəzər suitilərinin və digər nadir dəniz canlılarının mühafizəsi, onların təbii yaşayış mühitinin qorunması, eləcə də bu sahədə beynəlxalq təcrübə mübadiləsi və əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.


* * *

Bu gün, eyni zamanda Tonqanın Baş naziri Lord Fatafehi Fakafanuan COP31-də Azərbaycan pavilyonunu ziyarət edib. Pavilyonla tanış olan Baş nazirə burada qurulan stendlər və təqdim edilən layihələr barədə məlumat verilib.

Birəsrlik radio, 70 illik televiziya: Heydər Əliyev Sarayında "Yubiley gecəsi"

Noyabrın 15-də Heydər Əliyev Sarayında Azərbaycan Radiosunun 100, Azərbaycan Televiziyasının isə 70 illik yubileyi münasibətilə "Yubiley gecəsi" adlı konsert proqramı təşkil olunub.





AZƏRTAC xəbər verir ki, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva konsert proqramını izləyib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov çıxış edərək, Prezident İlham Əliyevin yubiley münasibətilə ünvanladığı təbrik məktubunu səsləndirib.



Gecənin bədii hissəsində Azərbaycanın tanınmış sənətkarları və musiqi kollektivləri çıxış ediblər. Xalq artistləri, Əməkdar artistlər və "Rast" qrupu tamaşaçılara musiqi nömrələri təqdim ediblər. Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışı gecəyə xüsusi rəng qatıb. Latviyanın məşhur müğənnisi Layma Vaykule də yubiley konsertində səhnəyə çıxıb.

Tədbir çərçivəsində Azərbaycan Televiziyasının görkəmli aparıcıları televiziya və radio tarixindəki xatirələrini bölüşüblər.

Yubiley gecəsində AzTV-nin zəngin arxiv materialları əsasında hazırlanmış filmlər nümayiş olunub. Həmçinin televiziyanın tamaşaçıların yaddaşında iz qoymuş məşhur teletamaşalarından səhnəciklər təqdim edilib.

Möhtəşəm yubiley gecəsi Azərbaycan Televiziyasının 100 nəfərlik xor kollektivinin və Xalq artisti Zeynəb Xanlarovanın ifası ilə başa çatıb.

17 Noyabr Milli Dirçəliş Günüdür

Milli dirçəlişdən tarixi Zəfərə



17 Noyabr Azərbaycanın istiqlal və oyanış tarixinin ən qürurlu, şərəfli səhifələrindən biridir. Həm 1988-ci ilin soyuq noyabr günlərində Bakının Azadlıq meydanında coşan xalq hərəkatı, həm də 1990-cı ildə Naxçıvanda Ulu Öndər Heydər Əliyev tərəfindən atılan tarixi addım Azərbaycanın milli dirçəlişinin, azadlıq mübarizəsinin və müstəqillik salnaməsinin təməl daşına çevrildi.

17 noyabr 1988-ci ildən başlayan milli mücadilə yolunun gerçək hədəfinə çatması məhz Ümummilli Lider Heydər Əliyevin müdrikliyi, dəmir iradəsi və şəxsi şücaəti sayəsində mümkün oldu. Əgər meydanlarda alovlanan xalq etirazı azadlıq eşqinin böyük qığılcımı idisə, onu sönməyə qoymayan və müstəqil dövlət məşəlinə çevirən məhz dahi liderin uzaqgörənliyi idi. Dahi şəxsiyyət imperiya qorxusunun hökm sürdüyü bir vaxtda şəxsi həyatını riskə ataraq milli ruhu konkret hüquqi-siyasi qərara çevirdi, müstəqilliyimizi əbədi və dönməz etdi.

İmperiya buxovları qırıldı

Ötən əsrin axırlarında Sovet İttifaqının təməlləri sarsılmağa başlayanda, imperiya mərkəzinin xalqımıza qarşı yürütdüyü ayrı-seçkilik siyasəti və ermənilərin haqsız ərazi iddiaları səbir kasamızı daşırdı. Topxana meşəsində törədilən vəhşiliklər və günahsız soydaşlarımızın qətlə yetirilməsi Bakıda milli hissləri alovlandırdı.

1988-ci il noyabrın 17-dən etibarən paytaxtın baş meydanına axışan yüz minlərlə insan 18 gün boyunca fasiləsiz etiraz aksiyaları keçirdi. Keçmiş SSRİ məkanında ən böyükmiqyaslı kütləvi xalq hərəkatı olan bu proses zamanı azadlıq və müstəqillik tələbləri səsləndi. İttifaq rəhbərliyi Bakıya qoşun yeridərək mitinqi dağıtsa da və fövqəladə vəziyyət elan etsə də, xalqın azadlıq eşqini söndürmək mümkün olmadı. Lakin həmin dövrdə hakimiyyətdə olan qüvvələrin səbatsızlığı və vahid siyasi xəttin olmaması ucbatından 20 Yanvar faciəsi yaşandı. Belə ağır və taleyüklü bir məqamda xalqın istiqlal ruhunu yaşadan və dövlətçilik məcrasına yönəldən qüdrətli liderə ehtiyac var idi.

Danılmaz gerçəklikdir ki, milli dirçəliş hərəkatının məntiqi davamı və dövlətçilik müstəvisinə keçidi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Hələ sovet ordusunun, xüsusi xidmət orqanlarının və Kommunist Partiyasının tam gücü ilə fəaliyyət göstərdiyi, hər bir müstəqil addımın böyük təhlükə doğurduğu o gərgin dövrdə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə tarixi qərarlar qəbul olundu. Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı və 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli milli bayrağımız Naxçıvanın dövlət bayrağı elan olundu.

"90-cı il noyabrın 17-də biz burada, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik elədiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Yəni bunu biz küçə və meydanda qaldırmadıq, orada bu bayraq qaldırıldı. Amma biz bir dövlət kimi Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmalıdır. Çıxartdıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq", - deyə Ulu Öndər Heydər Əliyev atılan tarixi addım barədə demişdi.

Bəli, bu hadisə Azərbaycanın gələcək müstəqilliyinin ilk hüquqi bəyanı idi.

1990-cı il noyabrın 17-də Azərbaycan milli bayrağının Naxçıvan Muxtar Respublikasında dalğalandırılması ölkəmizin, xalqımızın tarixinə yazılmış müstəsna əhəmiyyətə malik hadisələrdən biri oldu. Bu hadisəni əlahiddə edən Azərbaycanın ozamankı real vəziyyəti idi. Həm dövr, həm də baş verən siyasi proseslər Azərbaycanın müstəqillik simvolu olan üçrəngli bayrağının açıq-aydın ölkəmizin ərazisində qaldırılmasını mümkünsüz edirdi. Ancaq Ulu Öndər Heydər Əliyevin nümayiş etdirdiyi şəxsi şücaət və qətiyyət bu mümkünsüzü gerçəyə çevirdi. Tiran rejimin gözü qarşısında cümhuriyyətin yadigarı olan bayraq əzəmətlə dalğalandırıldı.

Ulu Öndər Heydər Əliyev yeni müstəqil Azərbaycanın ilk təməlini elə həmin gün - 17 noyabr 1990-cı ildə qədim yurdumuz Naxçıvanda atdı, milli dirçəlişdən milli zəfərə uzanan tarixi yolun bünövrəsi qoyuldu.

Naxçıvan Ali Məclisinin qəbul etdiyi bu cəsur qərar bütün respublikaya güclü təsir göstərdi. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də həmin vəsatətə baxıldı və Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" qanun qəbul edərək onu yenidən dövlət bayrağı elan etdi. Ulu Öndər Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin dövlət bayrağı ilə əlaqədar qəbul etdiyi qərara dair fikrini belə ifadə etmişdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

1993-cü ildə Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı isə parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycanın xilası oldu.

Tarixi ədalət bərpa olundu

Ulu Öndər Heydər Əliyevin Naxçıvanda qoyduğu və müstəqillik illərində inkişaf etdirdiyi müdrik strateji xətt ölkəmizin gələcək taleyini müəyyənləşdirən təməl daşı oldu. Həmin təməl üzərində ucalan müasir Azərbaycan bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır.

1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılan, illər boyu xalqımızı müstəqil ideallar ətrafında birləşdirən üçrəngli müqəddəs bayrağımız bu gün artıq işğaldan azad edilmiş bütün torpaqlarımızda - Xankəndidə, Şuşada, Laçında və digər ata-baba yurdlarımızda əzəmətlə dalğalanır.

Xalqımızın dahi liderin ideyalarına sadiq qalaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında "dəmir yumruq" kimi birləşməsi 2020-ci ildə 44 günlük Vətən müharibəsində tarixi Zəfəri təmin etdi.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri ilə isə ölkəmizin suverenliyi tam bərpa olundu.

Tarixin qəribə və simvolik ironiyası onda idi ki, ötən əsrin sonlarında - 1988-ci il fevralın 20-də şovinist ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin binasında Azərbaycanın əleyhinə bədnam qərar qəbul etmiş və həmin binanın qarşısındakı meydanı "dirçəliş meydanı" adlandırmışdılar. Lakin əsl tarixi və ilahi ədalət illər sonra öz yerini tapdı. Üzərindən illər keçdikdən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin məhz həmin meydanda - Xankəndinin mərkəzində Azərbaycan Bayrağını ucaltması Zəfər nöqtəsi oldu.

2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağını dalğalandıran Prezident İlham Əliyevin dediyi kimi: "Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

36 il əvvəl noyabrın 17-də Naxçıvan sessiyası zamanı qaldırılan üçrəngli müqəddəs bayrağımız bu gün bütöv və suveren Azərbaycanın hər qarışında əzəmətlə dalğalanır. Azərbaycan öz müqəddəratını özü həll edən, sərhədləri toxunulmaz, müstəqilliyi əbədi və dönməz olan qüdrətli dövlətdir. Milli dirçəlişdən başlanan bu şanlı yol xalqımızın əbədi Zəfər salnaməsidir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayraq

İndi Azərbaycanın bütün ərazisində qürurla dalğalanır

Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan milli-mənəvi dəyərlər hər bir etnosun kimliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına dəyərli töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər eyni zamanda hər bir xalqın mənəvi sərvəti, toxunulmaz xəzinəsi, özünütəsdiq faktıdır.

Tarixdən məlum olduğu kimi, Azərbaycan öz müstəqilliyini əldə etdiyi dövrlərdə xalqın milli kimliyinin pasportu hesab edilən dövlət atributları da yaradıldı. Azərbaycanlı milli düşüncəsində də əsas dövlət rəmzlərindən olan bayrağa münasibət tarixboyu özünü qabarıq göstərmiş, xalqımızın milli mövcudluq nişanəsi sayılmışdır. Müasir anlamda isə bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir. Azərbaycan Respublikasının müstəqil, suveren dövlət kimi mövcudluğunu dövlətçilik rəmzlərindən olan dövlət bayrağı bütün dünyaya göstərir. Zəngin tarixi irsdən yaranaraq uğrunda on minlərlə insanın canından keçdiyi üçrəngli bayrağımız tarixi yolumuzun, milli ideologiyamızın təməl prinsiplərini tam mənası ilə izah edir.

1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti iki ilə yaxın mövcudluqdan sonra öz dövlət müstəqilliyini itirsə də, milli dövlətçilik ənənələrinin formalaşması baxımından mühüm rol oynamışdır. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və sovet hakimiyyətinin qurulması ilə bu bayraq aradan götürülmüşdür.

Tarix dəfələrlə sübut edib ki, xalqın vahid məqsədlər uğrunda birləşməsi üçün zəruri olan milli birlik böyük siyasi dühaların yaratdığı ideologiyalarda reallaşır. XX əsrdə xalqımızla bağlı bu şərəfli missiyanı Ümummilli Lider Heydər Əliyev həyata keçirmişdir. Ulu Öndər Heydər Əliyev həyatının bütün dövrlərində milli ideologiyanın formalaşması və möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş, milli şüurun inkişafına nail olmuş, xalqa məxsus adət-ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmış, azərbaycançılığı milli ideologiyaya çevirməyə nail olmuşdur. Sovet İttifaqının dağılması ərəfəsində Ulu Öndər Heydər Əliyev siyasi bacarığı ilə Azərbaycan xalqını bəlalardan qorudu. Ümummilli Liderimiz 1990-cı il iyulun 22-də Naxçıvana gələrək burada xalqın dərdinə şərik çıxdı. Müdrik siyasətçinin rəhbərliyi altında Naxçıvanda dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2009-cu il avqustun 4-də Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə söylədiyi geniş nitqində bu barədə demişdir: "Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi".

36 il əvvəl - 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması və siyasi fəaliyyətini davam etdirməsi respublikamızda milli dirçəliş hərəkatını yeni mərhələyə yüksəltdi. Naxçıvandan başlanan bu proses qısa vaxtda ölkəmizin ictimai-siyasi mühitində böyük hərəkata çevrilməklə Azərbaycanın dövlət müstəqilliyinin bərpası istiqamətində mühüm tarixi hadisələrin baş verməsinə səbəb oldu. Azərbaycanın müstəqilliyinin qazanılmasında, onun qorunub saxlanmasında böyük əmək sərf edən dahi rəhbər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyi elan edilməmişdən hələ bir il əvvəl, yəni 1990-cı il noyabrın 17-də üçrəngli Azərbaycan bayrağını Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırdı. Həmin sessiya tariximizdə Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələnin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur. Ali Məclisin 1990-cı il noyabrın 17-də Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyasında Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün tarixi qərarlar qəbul edildi. Ulu Öndər bu barədə demişdir: "Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ kommunist partiyası da var idi, Sovet hakimiyyəti də. qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılsın. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunsun - milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır".

Dahi şəxsiyyətin işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərar müstəqil Azərbaycan Respublikasının dövlətçilik tarixində ilk və mühüm dövlət sənədi kimi özünəməxsus yerə malikdir. Həmin qərarda deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır: 1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin. 2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi - Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin. 3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".

Həmin gün üçrəngli bayrağımız zala gətirilmiş, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olunmuşdur. Bununla da milli dövlətçiliyimizin dirçəliş prosesinin hüquqi əsaslarının yaradılmasına məhz Ulu Öndərin rəhbərliyi ilə Naxçıvandan başlanmışdı. O dövrdə dahi şəxsiyyətin Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqillik tariximizdə mühüm mərhələ təşkil edir. Məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin sessiyada "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "Naxçıvan Muxtar Respublikası ali dövlət hakimiyyəti orqanı haqqında" tarixi qərarlar qəbul edilmişdir. "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunmuş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın dövlət rəmzi kimi tanınması barədə vəsatət qaldırmışdır. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin



Naxçıvan parlamentində qəbul etdiyi qərarlar təkcə muxtar respublika üçün yox, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edirdi.

Bəli, müstəqillik yolunda ilkin addımlar Ümummilli Lider tərəfindən Naxçıvanda atılmışdı və bu, o vaxt baş verirdi ki, SSRİ kimi imperiya hələ tarix səhnəsindən silinməmişdi. Bununla Naxçıvanda başlanan demokratik proseslər tezliklə Azərbaycanı ayağa qaldırdı. Həmin vaxt Naxçıvan artıq Azərbaycanın siyasi mərkəzinə çevrilmişdi. Bakıda oturaraq ölkənin müstəqilliyi barədə qərar qəbul etməyə tərəddüd göstərən ovaxtkı iqtidar bütün bu addımları düzgün qiymətləndirə bilmir, ya da qiymətləndirmək istəmirdi. Lakin Naxçıvan Ali Məclisi Heydər Əliyevin rəhbərliyi ilə artıq milli dövlətçilik ənənələrinin təşəkkül tapmasına istiqamətlənmiş mühüm tarixi qərarları qəbul edirdi.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 30 dekabr 2023-cü il tarixli sərəncamında bu hadisənin nə qədər tarixi əhəmiyyətə malik olduğu bir daha vurğulanmışdır: "Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır".

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi bərpa edilsə də, ölkə olum və ya ölüm dilemması ilə üz-üzə qalmışdır. Belə çətin bir vaxtda xalq nicat yolunu ancaq Ulu Öndərin timsalında görürdü. Milyonlarla insanın ümidli baxışları ona dikilmişdir. 1993-cü ildə xalq haqlı olaraq müdrik dövlət xadiminə üz tutdu və onun timsalında həqiqi xilaskarını tapdı. Heydər Əliyev bu təhlükələrə baxmadan xalqına dar gündə kömək etmək qərarına gəldi və tərəddüd etmədən 1993-cü ilin iyununda Bakıya qayıtdı. "Mən ömrümün qalan hissəsini də bundan sonra xalqıma həsr edəcəyəm" deyən dahi rəhbər siyasi hakimiyyətə qayıdışından dərhal sonra müstəqilliyimizin qorunub möhkəmləndirilməsi üçün ən vacib tədbirləri həyata keçirdi. Mühüm siyasi-iqtisadi islahatlara başlandı və müstəqil dövlətçiliyin inkişafına maneə törədən daxili və xarici qüvvələrə qarşı kəskin mübarizə aparıldı. Beləliklə, ölkəmizdə aparılan bütün islahatlar xalqın milli düşüncə tərzinin, vahid azərbaycançılıq ideologiyasının inkişafına zəmin yaratdı. Xalqımız öz dahi rəhbərinin ətrafında sıx birləşməklə möhkəm iradə nümayiş etdirdi və bütün sınaqlardan üzüağ çıxdı.

Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, Ulu Öndərin siyasi kursu onun layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirilir. Azərbaycan dövləti, Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilib. Ötən illər aşkar şəkildə göstərdi ki, cənab İlham Əliyev öz fəaliyyət dövrünü bu amalın reallaşmasına həsr etmiş, Ulu Öndərin müstəqillik və azadlıq ideyalarını dönmədən həyata keçirmiş, Azərbaycanı sosial-iqtisadi inkişaf, demokratik hüquqi dövlət quruculuğu və siyasi sabitlik baxımından dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirmişdir. Azərbaycan Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram dövlətimizin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir. Müstəqil Azərbaycan üçrəngli bayrağımız altında müstəqillik yolu ilə inamla irəliləyir, iqtisadi və siyasi gücünü getdikcə artırır. Ölkəmizin rəhbərinin Azərbaycan bayrağının ilk dəfə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildiyi gündə - 2009-cu il noyabrın 17-də imzaladığı tarixi sərəncamla təsis edilmiş Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü müqəddəs bayrağımıza, tarixi keçmişimizə və mənəvi-siyasi dəyərlərimizə, Naxçıvanda formalaşdırılan tarixi dövlətçilik ənənələrinə dövlət səviyyəsində olan diqqət və ehtiramın ən yüksək səviyyədə göstəricisidir.

Bu gün üçrəngli bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır. Qürurvericidir ki, illər öncə Prezidentimizin dediyi "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" ifadələri bu gün real həyatda təsdiqini tapıb.

36 il əvvəl - 1990-cı il noyabrın 17-də Ulu Öndər Heydər Əliyevin Naxçıvanda ucaltdığı bayrağımız Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əsl sərkərdə qətiyyəti ilə Qarabağda, Şərqi Zəngəzurda, bütün Azərbaycanda qürurla dalğalanmaqdadır.

Arzu ABDULLAYEV,
Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin sədr müavini

Azərbaycan-Böyük Britaniya strateji tərəfdaşlığı yeni əməkdaşlıqlar üçün zəmin yaradır

Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması iki ölkə arasında münasibətlərin inkişafında mühüm mərhələdir. Sənəd Azərbaycan-Böyük Britaniya əməkdaşlığının mövcud potensialını daha geniş strateji çərçivədə birləşdirir, ikitərəfli münasibətlərin gələcək istiqamətlərini müəyyənləşdirir və yeni əməkdaşlıq imkanları üçün siyasi zəmin yaradır.



Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA qəzetimizə açıqlamasında dedi ki, Azərbaycan ilə Böyük Britaniya arasında münasibətlər uzunmüddətli siyasi dialoq, qarşılıqlı etimad və iqtisadi əməkdaşlıq ənənələrinə əsaslanır. Bu münasibətlərin əsası müstəqillik əldə edildikdən sonra qoyulub. 1994-cü və 1998-ci illərdə imzalanmış sənədlərin davamı olan yeni bəyannamə tərəfdaşlığın müasir geosiyasi və iqtisadi reallıqlara uyğun şəkildə yenilənməsini ifadə edir. "Bəyannamənin əsas siyasi mesajlarından biri beynəlxalq hüququn fundamental prinsiplərinə, BMT Nizamnaməsinə, dövlətlərin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verilən dəstəkdir. Sənəddə 8 avqust 2025-ci ildə Vaşinqtonda əldə edilmiş razılaşmalara və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması istiqamətində atılan addımlara müsbət münasibət ifadə olunur. Birləşmiş Krallıq Cənubi Qafqazda davamlı sülhün, təhlükəsizliyin və regional əməkdaşlığın möhkəmləndirilməsinə dəstəyini qeyd edir. Bəyannamədə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi əsas istiqamətlərdən biri kimi müəyyən edilir. Bura hərbi təlim və hazırlıq, institusional potensialın gücləndirilməsi, əməliyyat uyğunluğu, müdafiə sənayesi sahəsində imkanların araşdırılması, hüquq-mühafizə orqanları arasında əməkdaşlıq, sərhəd idarəçiliyi və hüquqi sahədə qarşılıqlı fəaliyyət daxildir. Birləşmiş Krallıq ABŞ və Almaniyadan sonra üçüncü ən böyük NATO-ya vəsait xərcləyən, nüvə silahı olan ölkədir, onun hərbi xərcləri 2024-cü ildə rekord həddə - 84,2 milyard dollara çatıb. Hərbi dəniz qüvvələri üzrə strateji gücə malikdir. Tarixi xatırlasaq, Azərbaycanın Hərbi Dəniz Qüvvələri 1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk etdikdən sonra formalaşmağa başlamışdır. Həmin vaxta qədər Xəzər dənizinin qərb sahillərində müdafiəni ingilis hərbi gəmiləri təmin edirdi", - deyə o bildirdi.

Deputat hesab edir ki, yeni Strateji Tərəfdaşlıq haqqında Bəyannamə kontekstində Böyük Britaniya hərbi təlim, texnologiya və institusional əməkdaşlıq vasitəsilə kibertəhlükəsizliyə, ümumilikdə, müdafiə imkanlarının gücləndirilməsinə töhfələr verə bilər. Sənədin digər mühüm istiqaməti iqtisadi əməkdaşlığın genişləndirilməsidir. Azərbaycan və Böyük Britaniya arasında ticarət və investisiya əlaqələrinin inkişafı, biznes tərəfdaşlıqlarının təşviqi, kiçik və orta sahibkarlığın dəstəklənməsi, maliyyə bazarları və kapital qoyuluşu imkanlarının genişləndirilməsi prioritetlər sırasında yer alır. Xüsusilə bərpaolunan enerji, infrastruktur, nəqliyyat və logistika sahələri iki ölkə arasında əməkdaşlığın perspektivli istiqamətləri kimi diqqət çəkir.

P.Vəliyeva qeyd etdi ki, Azərbaycanın "Şərq-Qərb" nəqliyyat dəhlizində və Orta dəhliz marşrutunda artan rolu ölkəmizin regional və beynəlxalq iqtisadi əlaqələr sistemində strateji əhəmiyyətini gücləndirir: "Bu kontekstdə Böyük Britaniya ilə nəqliyyat-logistika infrastrukturunun, sərhədlərarası bağlantıların və xidmət sektorunun inkişafı üzrə əməkdaşlıq yeni iqtisadi imkanlar yarada bilər. BP ilə üç onillikdir ənənəvi enerji üzrə davam edən səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq bu gün "yaşıl enerji" keçidi ilə də ikitərəfli tərəfdaşlığın mühüm komponentlərindən birinə çevrilib. Azərbaycanın bərpaolunan enerji potensialı, enerji marşrutlarının şaxələndirilməsi və "yaşıl iqtisadiyyat"a keçid istiqamətində həyata keçirdiyi siyasət Böyük Britaniyanın maliyyə, texnologiya və investisiya imkanları ilə uzlaşdırıla bilər. "Yaşıl maliyyə" mexanizmləri, aşağıkarbonlu texnologiyalar və enerji infrastrukturu üzrə əməkdaşlıq həm iqtisadi artıma, həm də iqlim məqsədlərinə töhfə verər. Bu sahədə Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinə xüsusi əhəmiyyət verilməsi də diqqətəlayiqdir. Komissiya siyasi səviyyədə müəyyən edilmiş prioritetlərin konkret iqtisadi layihələrə və praktiki nəticələrə çevrilməsi üçün mühüm platforma rolunu oynaya bilər".

Deputat vurğuladı ki, Azərbaycan-Böyük Britaniya Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməsi əməkdaşlığın üç əsas istiqamətini - təhlükəsizlik, iqtisadi inkişaf və insan kapitalını vahid strateji çərçivədə birləşdirir. Bu tərəfdaşlığın gələcək uğuru isə qarşılıqlı maraqların uzlaşdırılmasından, siyasi dialoqun davamlılığından və bəyan edilmiş məqsədlərin konkret nəticələrlə dəstəklənməsindən asılı olacaq.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"



Ənənəvi enerjidən süni intellektə: Azərbaycan-Böyük Britaniya tərəfdaşlığının yeni istiqaməti

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem arasında Dublində keçirilmiş görüş, görüş zamanı Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin qəbulu iki ölkənin münasibətlərində mühüm siyasi hadisə olmaqla, gələcək iqtisadi və texnoloji əməkdaşlıq üçün də yeni perspektivlər açdı.

İndiyədək Azərbaycan-Böyük Britaniya münasibətlərinin əsas dayağını enerji sektoru təşkil edirdisə, yeni mərhələdə əməkdaşlıq daha böyük sahələrə doğru genişlənir. Bərpaolunan enerji, yüksək texnologiyalar, rəqəmsallaşma, süni intellekt, innovasiya və elm sahələrində tərəfdaşlığın dərinləşdirilməsi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Britaniya şirkətləri xüsusilə enerji sektorunda həyata keçirilən iri layihələr vasitəsilə Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayıblar. 30 ildən artıq müddətdə formalaşmış qarşılıqlı etimad, investisiya təcrübəsi və institusional əlaqələr indi yeni texnoloji tərəfdaşlığın inkişafı üçün əlverişli zəmin yaradır.

Birgə Bəyannamənin "Təhsil və innovasiya" bölməsində rəqəmsal və texniki bacarıqların inkişaf etdirilməsi, universitetlər, tədqiqat institutları, sənaye müəssisələri arasında tərəfdaşlığın genişləndirilməsi, süni intellekt və rəqəmsal idarəetmə sahələrində təcrübə mübadiləsinin təşviqi nəzərdə tutulur. Bu müddəalar göstərir ki, tərəflər rəqəmsal transformasiyaya iqtisadi rəqabət qabiliyyətinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, insan kapitalının inkişafı baxımından yanaşırlar. Müasir dünyada rəqəmsal texnologiyalar artıq iqtisadiyyatın ayrıca bir sahəsi olmaqdan çıxaraq onun bütün istiqamətlərinə təsir göstərən strateji amilə çevrilib. Süni intellektin istehsalatdan maliyyə xidmətlərinə, dövlət idarəçiliyindən səhiyyəyə qədər geniş tətbiqi ölkələrin iqtisadi inkişaf modellərini dəyişir. Bu prosesdə üstünlük yalnız texnologiyalara çıxışı olan dövlətlərdən daha çox həmin texnologiyaları iqtisadiyyatın real sektorlarına səmərəli inteqrasiya etməyi bacaran ölkələrə məxsusdur.

Azərbaycanın son illər rəqəmsal dövlət quruculuğu, elektron xidmətlərin genişləndirilməsi, maliyyə texnologiyaları və innovasiya ekosisteminin inkişafı istiqamətində həyata keçirdiyi tədbirlər bu baxımdan mühüm əhəmiyyət daşıyır. Dövlət xidmətlərinin elektronlaşdırılması, rəqəmsal identifikasiya mexanizmlərinin inkişafı və biznes proseslərinin avtomatlaşdırılması ölkədə yeni texnoloji mühitin formalaşmasına xidmət edir.

Lakin rəqəmsallaşmanın növbəti mərhələsi daha mürəkkəb vəzifələr ortaya qoyur. Artıq söhbət məlumatların təhlili əsasında qərarların qəbul olunmasından, proqnozlaşdırma sistemlərinin yaradılmasından və süni intellekt vasitəsilə idarəetmənin keyfiyyətcə təkmilləşdirilməsindən gedir. Məhz bu istiqamətdə Böyük Britaniyanın elmi, texnoloji və institusional təcrübəsi Azərbaycan üçün son dərəcə faydalıdır.

Strateji sahə

Böyük Britaniya süni intellekt sahəsində elmi tədqiqatları, aparıcı universitetləri, texnologiya şirkətləri, innovasiya ekosistemi ilə seçilən ölkələrdəndir. London, Kembric və Oksford kimi elmi-texnoloji mərkəzlər süni intellektin inkişafı, maşın öyrənməsi, məlumatların emalı və digər qabaqcıl texnologiyalar sahəsində beynəlxalq əməkdaşlıq üçün geniş imkanlara malikdir. Azərbaycan üçün Britaniya ilə bu sahədə tərəfdaşlığın əsas üstünlüyü hazır texnoloji həllərin əldə edilməsindən daha çox bilik və təcrübənin transferi, yerli mütəxəssislərin hazırlanması, elmi tədqiqatların genişləndirilməsi və milli innovasiya potensialının gücləndirilməsi ola bilər.

Birgə Bəyannamədə universitetlər, tədqiqat institutları, sənaye arasında əməkdaşlığın ayrıca vurğulanması da bu baxımdan əhəmiyyətlidir. Çünki süni intellekt iqtisadiyyatının inkişafı yalnız proqram təminatının alınması ilə məhdudlaşmır. Bunun üçün güclü elmi baza, yüksəkixtisaslı kadrlar, keyfiyyətli məlumat infrastrukturu və innovasiyaları kommersiya məhsuluna çevirməyi bacaran sahibkarlıq mühiti tələb olunur. İkitərəfli əməkdaşlıq çərçivəsində Azərbaycan universitetləri ilə Britaniyanın aparıcı ali təhsil və tədqiqat müəssisələri arasında birgə laboratoriyaların yaradılması, süni intellekt üzrə magistratura və doktorantura proqramlarının inkişaf etdirilməsi, elmi mübadilə və mütəxəssis hazırlığı proqramlarının həyata keçirilməsi perspektivli istiqamətlər olacaq. Belə əməkdaşlıq Azərbaycanda yeni texnoloji məhsullar, həllər yaradan mühəndis və tədqiqatçıların yetişməsinə də şərait yaradacaq.

Ölkəmiz üçün süni intellekt sahəsində milli kompetensiyaların, bilik və bacarıqların formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dilində işləyən süni intellekt sistemlərinin inkişafı, yerli məlumat bazalarının yaradılması, dövlət və özəl sektorda intellektual avtomatlaşdırma həllərinin tətbiqi bu istiqamətdə mühüm vəzifələrdəndir. Britaniyanın bu sahədəki elmi və texnoloji təcrübəsindən istifadə edilməsi ölkəmizin rəqəmsal suverenliyinin gücləndirilməsinə də töhfə verəcək.

Rəqəmsal dövlət idarəçiliyində yeni imkanlar

Azərbaycan-Böyük Britaniya əməkdaşlığının digər perspektivli istiqaməti rəqəmsal dövlət idarəçiliyidir. Böyük Britaniyanın dövlət xidmətlərinin rəqəmsallaşdırılması, hökumət qurumları arasında məlumat mübadiləsinin təşkili, istifadəçiyönümlü elektron xidmətlərin inkişafı və rəqəmsal idarəetmə standartlarının formalaşdırılması sahəsində təcrübəsi Azərbaycan üçün maraqlıdır. Ölkəmiz son illər elektron hökumət, rəqəmsal dövlət xidmətləri istiqamətində mühüm inkişaf yolu keçib. "ASAN xidmət" modeli, elektron hökumət infrastrukturu, rəqəmsal identifikasiya və müxtəlif elektron xidmət platformaları vətəndaşlarla dövlət arasında münasibətlərin daha çevik, şəffaf qurulmasına şərait yaradıb.

Növbəti mərhələdə əsas məsələlərdən biri bu sistemlərin süni intellekt imkanları ilə zənginləşdirilməsidir. Məsələn, süni intellektdən dövlət xidmətlərinə müraciətlərin təhlilində, vətəndaş ehtiyaclarının proqnozlaşdırılmasında, inzibati proseslərin optimallaşdırılmasında və resursların daha səmərəli bölüşdürülməsində istifadə oluna bilər. Lakin belə texnologiyaların tətbiqi məlumatların təhlükəsizliyi, şəxsi məlumatların qorunması, alqoritmik qərarların şəffaflığı və insan nəzarətinin təmin olunması kimi məsələləri də aktuallaşdırır. Bu baxımdan Britaniya ilə əməkdaşlıq süni intellektin məsuliyyətli və etibarlı istifadəsi üçün institusional mexanizmlərin inkişafı sarıdan perspektivlidir. Elə Birgə Bəyannamədə rəqəmsal idarəetmə ilə yanaşı, şəffaflıq və inklüziv inkişaf prinsiplərinin qeyd edilməsi də bu məsələlərə verilən əhəmiyyəti göstərir.

İki ölkə arasında texnoloji tərəfdaşlığın mühüm tətbiq sahələrindən biri də maliyyə sektorudur. London dünyanın aparıcı beynəlxalq maliyyə mərkəzlərindəndir. Böyük Britaniyanın bankçılıq, maliyyə texnologiyaları, rəqəmsal ödənişlər, açıq bankçılıq və maliyyə innovasiyaları sahəsində formalaşdırdığı təcrübə Azərbaycanın maliyyə sektorunun texnoloji inkişafı üçün əlavə imkanlar yaradır. Son illər Azərbaycan banklarında rəqəmsal xidmətlərin genişlənməsi, mobil bankçılığın inkişafı, nağdsız ödənişlərin artması və müştəri xidmətlərində avtomatlaşdırmanın tətbiqi bu sahənin yüksək texnoloji potensiala malik olduğunu göstərir.

Süni intellekt isə bank sektorunda növbəti transformasiya mərhələsinin əsas hərəkətverici qüvvələrindən birinə çevrilir. Bu texnologiyalar kredit risklərinin qiymətləndirilməsi, fırıldaqçılıq hallarının aşkarlanması, müştəri davranışlarının təhlili, fərdiləşdirilmiş maliyyə xidmətlərinin göstərilməsi və əməliyyat proseslərinin optimallaşdırılması üçün geniş imkanlar yaradır.

Azərbaycan və Britaniyanın maliyyə qurumları arasında bilik mübadiləsi, birgə innovasiya layihələri, fintek şirkətlərinin əməkdaşlığı və texnoloji investisiyalar bu imkanların reallaşdırılmasını sürətləndirə bilər. Xüsusilə kiçik və orta biznesin maliyyə xidmətlərinə çıxışının yaxşılaşdırılması, rəqəmsal kreditləşmə, alternativ məlumatlar əsasında risk qiymətləndirilməsi və sərhədlərarası ödənişlərin təkmilləşdirilməsi əməkdaşlığın praktik nəticələr verə biləcəyi istiqamətlərdəndir.

Birgə Bəyannamədə maliyyə və kapital bazarları arasında əməkdaşlığın dərinləşdirilməsi, maliyyə sektorunun dayanıqlılığının, şəffaflığının, beynəlxalq bazarlara çıxış imkanlarının gücləndirilməsi də nəzərdə tutulur. Bu müddəalar rəqəmsal maliyyə sahəsində gələcək birgə təşəbbüslər üçün əlverişli siyasi və institusional çərçivə yaradır.

Enerji tərəfdaşlığının yeni texnoloji məzmunu

Azərbaycanla Böyük Britaniya arasında enerji əməkdaşlığının zəngin tarixi yeni texnoloji tərəfdaşlıq üçün də mühüm üstünlükdür. Müasir enerji sistemlərində süni intellekt və rəqəmsal texnologiyalar getdikcə daha ciddi rol oynayır. Elektrik enerjisinə tələbatın proqnozlaşdırılması, enerji istehsalının optimallaşdırılması, avadanlıqların texniki vəziyyətinin əvvəlcədən qiymətləndirilməsi və şəbəkə itkilərinin azaldılması artıq intellektual texnologiyaların əsas tətbiq sahələrindəndir.

Bərpaolunan enerji mənbələrinin inkişafı isə bu texnologiyalara ehtiyacı daha da artırır. Günəş və külək enerjisinin istehsalı hava şəraitindən asılı olduğuna görə, elektrik şəbəkələrinin sabit idarə olunması üçün məlumatların real vaxt rejimində təhlili və proqnozlaşdırma sistemləri xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın "yaşıl enerji" potensialının inkişaf etdirilməsi, yeni enerji layihələrinin həyata keçirilməsi və elektrik şəbəkələrinin modernləşdirilməsi fonunda Britaniya ilə bu sahədə texnoloji əməkdaşlıq əhəmiyyətli nəticələr verə bilər.

Beləliklə, Azərbaycan və Böyük Britaniya arasında ənənəvi enerji əməkdaşlığı ilə yeni rəqəmsal tərəfdaşlıq bir-birini tamamlayan iki istiqamətə çevrilmiş olur. Bu isə münasibətlərin bütövlükdə iqtisadiyyatın modernləşdirilməsi müstəvisində inkişaf etdirilməsinə şərait yaradır.

Rəqəmsallaşma və süni intellekt sahəsində əməkdaşlığın davamlı nəticələr verməsi üçün əsas şərtlərdən biri insan kapitalının inkişafıdır. Texnoloji transformasiyanın uğuru yalnız maliyyə resurslarından və müasir avadanlıqlardan asılı deyil. Əsas məsələ həmin texnologiyaları yaradan, tətbiq və idarə edən peşəkar kadr potensialının formalaşdırılmasıdır. Bu baxımdan Birgə Bəyannamədə təhsil, elm və innovasiya məsələlərinin ayrıca istiqamət kimi müəyyən olunması strateji əhəmiyyət daşıyır.

Azərbaycan və Britaniya universitetləri arasında qarşılıqlı təhsil proqramlarının genişləndirilməsi, tələbə və müəllim mübadiləsinin təşviqi, texnoloji startapların dəstəklənməsi, elmi nəticələrin kommersiyalaşdırılması sahəsində əməkdaşlıq uzunmüddətli nəticələr verəcək. Xüsusilə süni intellekt, kibertəhlükəsizlik, məlumat elmi, proqram mühəndisliyi və rəqəmsal idarəetmə sahələrində mütəxəssis hazırlığı əmək bazarının gələcək tələblərinə cavab vermək baxımından vacibdir.

Bilik və innovasiya əsaslı iqtisadiyyat

Burada daha bir mühüm məsələ universitetlərlə real iqtisadiyyat arasında əlaqələrin gücləndirilməsidir. Elmi tədqiqatların praktik tətbiqi, biznesin innovasiya proseslərinə cəlb olunması və startapların beynəlxalq bazarlara çıxışının dəstəklənməsi texnoloji tərəfdaşlığın iqtisadi dəyərini artırar. Britaniya investisiya və innovasiya ekosistemi ilə əlaqələrin genişlənməsi Azərbaycan startaplarının beynəlxalq bazarlara inteqrasiyası baxımından da yeni imkanlar açа bilər. Bu proses ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi siyasəti ilə də uzlaşır. Çünki bilik və innovasiya əsaslı iqtisadiyyatın formalaşması qeyri-neft sektorunda yüksək əlavə dəyər yaradan yeni fəaliyyət sahələrinin inkişafını tələb edir.

Müasir beynəlxalq münasibətlər sistemində texnologiya getdikcə daha mühüm strateji resursa çevrilir. Süni intellekt, rəqəmsal infrastruktur, məlumatların təhlükəsizliyi və innovasiya potensialı ölkələrin iqtisadi rəqabət qabiliyyəti ilə yanaşı, onların beynəlxalq mövqelərinə də təsir göstərir. Bu baxımdan Böyük Britaniya ilə texnoloji əməkdaşlığın inkişafı Azərbaycan üçün həm iqtisadi modernləşmə, həm də beynəlxalq elmi və innovasiya şəbəkələrinə inteqrasiya imkanlarının genişləndirilməsi deməkdir.

Ölkəmizin enerji, nəqliyyat və logistika sahələrində formalaşdırdığı regional imkanlar rəqəmsal texnologiyalarla tamamlandıqda beynəlxalq iqtisadi əlaqələrdə Azərbaycanın rolu daha da güclənəcək. Xüsusilə Orta dəhlizin inkişafı fonunda rəqəmsal logistika sistemləri, intellektual nəqliyyat həlləri, yük axınlarının proqnozlaşdırılması və sərhədlərarası ticarət proseslərinin avtomatlaşdırılması əlavə əməkdaşlıq imkanları yaradacaq. Bu sahələrdə süni intellektin tətbiqi dəhlizin səmərəliliyini və rəqabət qabiliyyətini daha da yüksəldəcək. Beləliklə, Azərbaycan-Böyük Britaniya texnoloji tərəfdaşlığı ikitərəfli münasibətlər çərçivəsindən çıxaraq, daha geniş regional iqtisadi proseslər baxımından da perspektivli görünür.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Bir gündə 10 təşəbbüs, 10 görüş...

Dublin Sammitində Avropa liderlərinin Bakı ilə dialoq istəyi Azərbaycanın artan geosiyasi çəkisini göstərir

Noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyinin" 9-cu Zirvə Toplantısında Azərbaycan diplomatiyası sıx qrafiki ilə seçildi. Prezident İlham Əliyev gün ərzində Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, həmçinin Ukrayna, Moldova, Bolqarıstan, Yunanıstan, Çexiya, Rumıniya, Litva, Böyük Britaniya və Ermənistanın dövlət və hökumət başçıları da daxil olmaqla, ümumilikdə 10 ikitərəfli görüş keçirdi. Bu görüşlərin hamısı məhz qarşı tərəflərin müraciəti əsasında reallaşdı.

Qitənin fərqli qütblərini təmsil edən liderlərin bir gündə Bakı ilə təmas qurmağa can atması sammitin ən diqqətçəkən mənzərəsinə çevrildi. Çünki enerji təminatından tutmuş yeni ticarət yollarına və regional sabitliyə qədər Avropanı maraqlandıran əsas məsələlərin həlli məhz Bakı ilə əməkdaşlıqdan keçir.

Avropa paytaxtlarının Azərbaycana olan yüksək marağı həm də iqtisadi zərurətdən irəli gəlir. 2022-ci ildə Avropa İttifaqı ilə imzalanmış Strateji Tərəfdaşlıq Memorandumundan sonra Aİ məkanına qaz ixracını 8 milyard kubmetrdən 13 milyard kubmetrə yüksəldən Azərbaycan hazırda 10 ittifaq üzvünün enerji təchizatında birbaşa rol oynayır. Bakıdan İtaliyaya uzanan boru kəmərinin tam gücü ilə işləməsi və Yunanıstan-İtaliya istiqamətində ötürücülük qabiliyyətinin 11,2 milyard kubmetrə çatdırılması Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, eləcə də Yunanıstan, Bolqarıstan, Rumıniya və Moldova liderləri ilə görüşlərdə xüsusi vurğulandı. Çünki enerji böhranından sonra Avropa üçün əsas məsələ yalnız resurs tapmaq yox, həm də sözünə sadiq tərəfdaşla işləməkdir.

Lakin rəsmi Bakının təklifləri yalnız ənənəvi enerji resursları ilə məhdudlaşmır. Gürcüstan, Türkiyə və Bolqarıstanla birgə icra olunan "yaşıl enerji" dəhlizi layihəsi və Naxçıvan dəmir yolu xətti üzrə Aİ-nin qiymətləndirmə prosesini yekunlaşdırmaq üzrə olması Azərbaycanı həm də Orta dəhlizin əsas logistik qovşağına çevirir. Yəni ölkəmiz Avropanın həm bugünkü enerji ehtiyaclarını qarşılayır, həm də gələcəyin "yaşıl iqtisadiyyat"ı və ticarət marşrutları üçün əsas körpü rolunu oynayır.

Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirən digər mühüm faktor qlobal rəqabətin kəskinləşdiyi bir dövrdə bir-birinə zidd olan böyük güc mərkəzləri ilə eyni vaxtda qarşılıqlı hörmətə əsaslanan münasibətlər qura bilməsidir.

Ötən il Çinlə Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması, bu ilin fevralında isə ABŞ vitse-prezidenti Cey.Di.Vensin Bakıya səfəri zamanı iki ölkə arasında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın qəbul edilməsi və Dublin Sammitində Böyük Britaniyanın Baş naziri Endi Börnhem ilə Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin mübadiləsi bu çevik siyasətin nəticəsidir. Britaniya ilə 30 illik neft-qaz əməkdaşlığının artıq süni intellekt və yüksək texnologiyalar müstəvisinə keçməsi isə Azərbaycana olan uzunmüddətli etimaddan xəbər verir.

Dublin görüşləri həmçinin Cənubi Qafqazdakı yeni reallıqların artıq beynəlxalq gündəmin ayrılmaz hissəsinə çevrildiyini göstərdi. Ermənistanın baş naziri Nikol Paşinyanın müraciəti əsasında baş tutan görüşdə 2025-ci ilin avqustunda əldə edilmiş Vaşinqton razılaşmaları və Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) dəmir yolu və avtomobil yolu komponentlərinin layihələndirilməsi müzakirə edildi. Bu, regionda sülh gündəliyinin artıq müzakirə mərhələsindən praktik icra mərhələsinə keçdiyini təsdiqləyir. Eyni zamanda Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycanın göstərdiyi humanitar və enerji avadanlıqları dəstəyinə görə təşəkkür etməsi, rəsmi Kiyevin Qarabağ və Şərqi Zəngəzurdakı bərpaquruculuq modelini öz ölkəsi üçün nümunə kimi dəyərləndirməsi Bakının həm də postmünaqişə dövründə bu sahədə təcrübəsi ilə dünyaya töhfə verdiyini göstərir. Vətən müharibəsindən dərhal sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq və bərpa işlərinə start verən ölkəmiz "Böyük qayıdış" proqramını uğurla reallaşdırır.

Cari il ərzində Avropa İttifaqının ali rəsmiləri - Antonio Koşta, Kaya Kallas və Ursula fon der Lyayenin Bakıya ardıcıl səfərləri, Aİ ilə 2026-2030-cu illər üzrə Tərəfdaşlıq Prioritetlərinin razılaşdırılması və nəhayət, Dublin Sammitindəki diplomatik fəallıq Azərbaycanın Avropa siyasətindəki yerini daha da möhkəmləndirdi.

Bütün bu proseslərin davamı olaraq, 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 12-ci Zirvə toplantısına evsahibliyi etmək hüququnun yekdilliklə Bakıya həvalə olunması xüsusi məna daşıyır. Həmin dövrdə həm də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrlik edəcək Azərbaycan eyni zamanda Avropanın ən böyük siyasi platformasını qəbul etməklə dünya diplomatiyasında nadir rast gəlinən bir missiyanı yerinə yetirəcək.

Görünən odur ki, Şərqlə Qərbin, Asiya ilə Avropanın yolları bu gün təkcə coğrafi xəritədə deyil, həm də siyasi qərarların qəbul olunduğu Bakıda kəsişir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Şəhidliyin və qəhrəmanlığın yazıya hopan salnaməsi

"Azərbaycan" qəzetində şəhid Elgün İsmayılov adına ənənəvi yaradıcılıq müsabiqəsinə yekun vuruldu











Elə yazılar var ki, onların hər sətri bir xatirə, hər cümləsi bir minnətdarlıq, hər sözü bir Vətən sevgisi daşıyır. Şəhidlərimizin ömür yolu, qazilərin qəhrəmanlıq salnaməsi və xalqımızın Zəfər tarixi haqqında yazmaq məhz belə bir məsuliyyətdir. Çünki bu mövzuların arxasında xalqın taleyi, milyonların qüruru, minlərlə ailənin ağrısı və sonsuz minnətdarlığı dayanır.

"Azərbaycan" qəzeti redaksiyasının ənənəvi olaraq hər il keçirdiyi şəhid əməkdaşımız Elgün İsmayılov adına yaradıcılıq müsabiqəsi də məhz bu mənəvi dəyərlərin yaşadılmasına, Vətən uğrunda canından keçən qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsinə xidmət edir. Dünən redaksiyada növbəti dəfə bu münasibətlə təşkil olunan tədbirdə qəzetin baş redaktoru Bəxtiyar Sadıqov çıxış edərək şəhidlik zirvəsindən, onun müqəddəsliyindən, Vətən sevgisinin ucalığından, xalqımızın qəhrəman oğullarının misilsiz şücaətindən danışdı.

Baş redaktor çıxışında o məqama xüsusi diqqət çəkdi ki, 6 il əvvələ qədər şəhidlik və qəhrəmanlıq mövzusunda yazılan hər məqalənin arxasında böyük bir nisgil vardı. Jurnalistlər yazılarına Vətən həsrətini, torpaq nisgilini hopdururdular. Çünki Qarabağ hələ azad deyildi, Şuşaya qovuşmaq, doğma yurd yerlərində bayrağımızın dalğalanmasını görmək xalqımızın ən böyük arzusu idi.

Bu gün isə tarix başqa cür yazılır. Artıq biz qalib xalqın övladıyıq. Azərbaycan Ordusunun qəhrəmanlığı, əsgər və zabitlərimizin fədakarlığı, dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və xalqımızın birliyi sayəsində torpaqlarımız işğaldan azad edilib, ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olunub. İndi jurnalistin qarşısında başqa bir vəzifə durur. O da qazanılmış Zəfərin tarixini yazmaq, 44 günlük Vətən müharibəsində göstərilən qəhrəmanlığı gələcək nəsillərə çatdırmaqdır. Bu, yalnız peşə vəzifəsi deyil, həm də mənəvi borcdur. Çünki yazılan hər sətir həm tarixi yaddaşın qorunmasına, həm də qəhrəmanlıq salnaməsinin yaşadılmasına xidmət edir.

"Azərbaycan" qəzetinin əməkdaşları bu məsuliyyəti öz yaradıcılıqlarında daim hiss edirlər. Birinci Qarabağ müharibəsi şəhidi Elgün İsmayılovun adını daşıyan ənənəvi yaradıcılıq müsabiqəsində qəzetin üç əməkdaşının - Züleyxa Əliyeva, Rəşad Cəfərli və Elşən Qəniyevin qalib olması bunun nümunəsidir. Onların təqdim etdikləri yazılarda Vətən sevgisi, şəhidlərimizin xatirəsinə ehtiram, qəhrəmanlıq tariximizə bağlılıq səmimi və ürəkdən gələn sözlərlə ifadə olunub. Bu yazılar, sadəcə, müsabiqəyə təqdim edilən jurnalist yazıları deyil, həm də tarixi yaddaşımıza, milli dəyərlərimizə sədaqətin ifadəsidir.

Elgün İsmayılovun timsalında öncə bütün şəhidlərin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edildiyi tədbirdə müsabiqənin qalibləri çıxış edərək, öz təəssüratlarını, qürur və minnətdarlıq duyğularını bölüşdülər. Hər üç əməkdaşımızın ürək sözlərində eyni duyğu, eyni məsuliyyət hissi duyulurdu: "Şəhidlərimizin bizə əmanət qoyduğu Vətənə layiqli övlad olmaq, onların qəhrəmanlıq tarixini yaşatmaq və gələcək nəsillərə çatdırmaq hər birimizin mənəvi borcudur".

Müsabiqənin qalibləri üçün bu mükafat, şübhəsiz, yaradıcılığa verilən qiymət olmaqla yanaşı, həm də böyük mənəvi məsuliyyətdir. Çünki şəhid adını daşıyan müsabiqədə qalib gəlmək qəhrəmanların xatirəsinə ehtiramın, onların adını və şücaətini sözlə yaşatmaq istəyinin ifadəsidir. Şəhidlərin əmanətinə sahib çıxmaq, onların qəhrəmanlığını gələcək nəsillərə çatdırmaq hər bir jurnalistin mənəvi borcudur.

Zaman dəyişib, tariximizin səhifələri yenilənib. İllər öncə nisgil hopmuş vətənpərvərlik mövzuları bu gün Zəfər qürurunu ilə qələmə alınır. Şəhidlərimizin qəhrəmanlığı xalqımızın yaddaşında yaşadıqca onların igidliyindən bəhs edən yazılar da nəsildən-nəslə ötürüləcək - qəzetimizdə olduğu kimi.

"Azərbaycan"



"Türkiyə ilə Azərbaycanın qardaşlığı tarixin miras qoyduğu dəyərdir"

"Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri yalnız beynəlxalq münasibətlərin ənənəvi anlayışları və dövlətlərarası maraqlar çərçivəsində qiymətləndirmək kifayət deyil. Bu əlaqələrin təməlində eyni tarixi və mədəni köklərdən qaynaqlanan, ortaq sivilizasiya düşüncəsinə malik iki qardaş xalqın mənəvi birliyi dayanır. Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı siyasi arzudan daha çox tarixi və sosioloji reallığın ifadəsidir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **türk ekspert Abdulla GÜNAY** bildirib.

Onun sözlərinə görə, Türkiyə və Azərbaycan xalqları yalnız eyni dilin müxtəlif ləhcələrində danışmır, həm də bir-biri ilə könül dili ilə ünsiyyət qurur.

"Sözlərin ifadə etməkdə çətinlik çəkdiyi məqamlarda ortaq tarix, mədəniyyət və mənsubiyyət hissi ön plana çıxır. Azərbaycan torpaqlarında şəhid olan Anadolu övladları və Çanaqqalada şəhadətə yüksələn azərbaycanlılar iki xalqın qardaşlığının yalnız sözlərlə deyil, tale birliyi ilə də qurulduğunun tarixi şahidləridir.

Azərbaycanın 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində nümayiş etdirdiyi qəhrəmanlıq yalnız hərbi qələbə deyil, həm də misilsiz milli iradə və ictimai həmrəylik nümunəsidir. Prezident İlham Əliyevin liderliyi ilə vahid qüvvəyə çevrilən Azərbaycan xalqı milli birlik və həmrəyliyin nəyə qadir olduğunu bütün dünyaya göstərdi.

Həmin 44 gün müddətində Türkiyənin ürəyi Azərbaycanla birlikdə döyündü. Bu, ortaq tarixi və mədəni mənsubiyyətin təbii nəticəsi idi", - deyə ekspert bildirib.

Abdulla Günay qardaşlıq münasibətlərinin diplomatik müstəvidə ən parlaq nümunələrindən biri kimi 2014-cü il aprelin 24-də Praqada keçirilən Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitini xatırladıb.

"Türkiyə nümayəndələrinin zalda olmadığı şəraitdən istifadə edərək Türkiyəni hədəf alan Ermənistanın ozamankı prezidenti Serj Sarkisyanın çıxışına qarşı Prezident İlham Əliyev söz alaraq "Türkiyə burda yoxdur, amma mən buradayam" cavabını vermişdi. Bu mövqe iki ölkə arasındakı münasibətlərin səviyyəsini ifadə edən mühüm nümunədir.

Prezident İlham Əliyevin həmin gün Türkiyəni müdafiə etmək üçün əvvəlcədən hazırlanmış diplomatik protokola və ya rəsmi səlahiyyətə ehtiyacı olmayıb. Şəxsən heç vaxt unutmadığım həmin səhnəni tarixi kodlarımızın yenidən canlandığı və könül birliyimizin diplomatiyada əks olunduğu müstəsna an kimi xatırlayıram", - deyə A.Günay əlavə edib.

O, Azərbaycan və Türkiyə prezidentləri arasındakı səmimi münasibətlərin iki xalqın qardaşlığını möhkəmləndirən mühüm amil olduğuna diqqət çəkib: "Hər iki dövlət başçısının bir-birinə müraciət edərkən işlətdiyi "qardaşım" ifadəsi rəsmi diplomatik nəzakətdən daha dərin məna daşıyır. Liderlərin qarşılıqlı səfərləri və əlamətdar günlərdə nümayiş etdirdikləri həmrəylik dövlətlərarası münasibətlərin insani tərəfini də gücləndirir. 2026-cı il noyabrın 8-də Qarabağ Zəfərinin altıncı ildönümü münasibətilə Şuşada keçirilən görüşdə, eləcə də Antalya İqlim Sammitində iki prezidentin ailələri ilə birlikdə rəsmi çərçivələri aşan səmimi münasibət nümayiş etdirməsi bu qardaşlığın və təbii yaxınlığın təzahürüdür.

Beynəlxalq münasibətlər baxımından liderlər arasındakı etimad diplomatik qeyri-müəyyənliklərin azaldılması, böhranların idarə olunması və ortaq siyasətlərin hazırlanması üçün mühüm sosial kapitaldır. Türkiyə-Azərbaycan münasibətlərinin fərqləndirici xüsusiyyəti isə bu kapitalın yalnız liderlər arasındakı şəxsi münasibətlərdən deyil, xalqların tarixi yaddaşından da qaynaqlanmasıdır".

Ölkəmizin əhəmiyyətinin yalnız neft və təbii qaz ehtiyatlarının zənginliyi ilə məhdudlaşmadığını bildirən ekspert qeyd edib ki, beynəlxalq enerji və logistika xətlərinin fasiləsizliyi və təhlükəsizliyi baxımından Azərbaycan qitələrarası iqtisadi-siyasi münasibətlərin mühüm iştirakçılarından birinə çevrilib. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, TANAP və Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də inkişaf etməkdə olan Orta dəhliz Azərbaycanın bu strateji mövqeyini daha da gücləndirir. Türk Dövlətləri Təşkilatının fəaliyyətini yaxından izləyən və regionda təsir imkanlarını artırmaq istəyən beynəlxalq aktorların Azərbaycanla sıx təmasda olmağa ehtiyac duyması da bu çərçivədə qiymətləndirilməlidir.

Ekspert Türkiyə ilə Azərbaycan arasında siyasi və mədəni yaxınlığın iqtisadi sahədə daha dərin inteqrasiya ilə dəstəklənməsinin vacibliyini qeyd edib. "Türkiyə ilə Azərbaycanın qardaşlığı tarixin bizə miras qoyduğu dəyərdir. Ortaq rifah və ortaq gələcək isə birlikdə inşa edəcəyimiz bir sivilizasiya əsəri olacaq", - deyə Abdulla Günay fikirlərini yekunlaşdırıb.

Ötən həftənin iqtisadi icmalı

Enerji əməkdaşlığı, yeni investisiya imkanları və dünya bazarlarında qiymət dəyişiklikləri

Ötən həftə ölkənin iqtisadi həyatında bir sıra mühüm hadisələr və yeniliklər baş verib. Beynəlxalq əməkdaşlıq, enerji sektoru, investisiyalar və maliyyə bazarları ilə bağlı diqqətçəkən xəbərlər iqtisadi gündəmin əsas mövzularını təşkil edib.

Həftənin ilk günündə Azərbaycanla Çin arasında enerji sektorunda əməkdaşlığın inkişafı istiqamətində yeni addım atılıb. SOCAR və Çinin "Sinopec" şirkəti strateji əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar. Şanxayda imzalanan sənəd satınalma və təchizat zəncirinin idarə olunması sahələrində tərəfdaşlığın genişləndirilməsini, təchizatçı resursları barədə məlumat mübadiləsini və qarşılıqlı satınalma imkanlarının araşdırılmasını nəzərdə tutur. Razılaşma çərçivəsində tərəflər qabaqcıl təcrübələrin bölüşdürülməsi, məhsul və avadanlıqların qarşılıqlı təchizat zəncirlərinə daxil edilməsi imkanlarını da nəzərdən keçiriblər.

* * *

Enerji sahəsində regional əməkdaşlığın genişləndirilməsi istiqamətində daha bir mühüm razılaşma əldə olunub. COP31 çərçivəsində Antalyada Azərbaycan, Türkiyə, Gürcüstan və Bolqarıstan arasında təmiz enerji sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanıb. Sənəd dörd ölkə arasında "yaşıl enerji" dəhlizinin inkişafını, elektrik enerjisinin ötürülməsi və təchizatı üzrə əməkdaşlığın gücləndirilməsini nəzərdə tutur. Layihə Azərbaycanın bərpaolunan enerji potensialından istifadə etməklə elektrik enerjisinin Türkiyə və Avropa bazarlarına ixrac imkanlarının genişləndirilməsinə xidmət edəcək.

* * *

Ötən həftənin ən diqqətçəkən hadisəsi Türkiyədə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasının Liderlər Sammiti olub. Noyabrın 11-də Antalyada COP31 çərçivəsində təşkil olunan sammitdə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva iştirak ediblər.

Sammitdə qlobal iqlim dəyişiklikləri ilə mübarizə, emissiyaların azaldılması və dayanıqlı enerji keçidi məsələləri müzakirə olunub. Görüş beynəlxalq iqlim gündəliyində ölkələrin əməkdaşlığının gücləndirilməsi baxımından əhəmiyyət daşıyıb.

* * *

İqlim gündəliyi ilə yanaşı, Avropanın enerji təhlükəsizliyi və regional əməkdaşlıq məsələləri də ötən həftə Prezident İlham Əliyevin iştirak etdiyi beynəlxalq tədbirlərin əsas mövzularından olub. Enerji və iqtisadi əməkdaşlıq məsələləri noyabrın 12-də Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısında müzakirəyə çıxarılıb. Prezident İlham Əliyev "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda "dəyirmi masa"da iştirak edib.

Dövlət başçısı çıxışında Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki roluna toxunaraq bildirib ki, Avropa İttifaqına qaz ixracı 2022-ci ildən bəri 8 milyard kubmetrdən 13 milyard kubmetrə çatdırılıb. Azərbaycanın qaz təchizatını artırmaq planlarının olduğunu vurğulayan Prezident enerji infrastrukturunun genişləndirilməsinin vacibliyini də qeyd edib.

* * *

Həftənin mühüm hadisələrindən biri 2027-ci ilin dövlət büdcəsi layihəsinin Milli Məclisdə müzakirəsi olub. Noyabrın 13-də layihə birinci oxunuşda təqdim edilib və plenar iclasa tövsiyə olunub.

Sənədə əsasən, gələn il Azərbaycanda ÜDM-in 141 milyard manat, dövlət büdcəsinin gəlirlərinin isə 39,3 milyard manat olacağı proqnozlaşdırılır. Neftin orta illik qiyməti 65 dollar, inflyasiya 5,3 faiz, iqtisadi artım isə 2,7 faiz səviyyəsində nəzərdə tutulub. Ortamüddətli dövrdə neftdənkənar sahədə 4,4 faizlik artım gözlənilir.

* * *

Rəqəmsal iqtisadiyyat və innovasiyalar sahəsindəki yeniliklər də ötən həftənin gündəmində yer alıb. Noyabrın 13-də Bakıda İkinci Süni İntellekt Sammiti keçirilib. Dövlət və özəl sektor nümayəndələrini, beynəlxalq ekspertləri və texnologiya şirkətlərini bir araya gətirən tədbirdə süni intellektin müxtəlif sahələrdə tətbiqi, yeni texnoloji yeniliklər və Azərbaycanın rəqəmsal inkişaf perspektivləri müzakirə olunub. Sammit çərçivəsində təqdimatlar, panel müzakirələri və praktiki nümayişlər təşkil edilib.

* * *

Ötən həftənin ən qürurverici hadisəsi Azərbaycan gəmiçilik tarixində yeni bir səhifənin açılması idi. Müstəqil Azərbaycan bayrağı altında üzən ilk tanker - "Xankəndi" Avstraliya sularına daxil olaraq tarixə düşüb. Bruneydən yola çıxan tanker 18 günlük səfərin ardından Avstraliyanın Gilonq limanına çatıb. Burada yükünü təhlükəsiz şəkildə boşaldan gəmi ekoloji və texniki təhlükəsizlik yoxlamalarından uğurla keçib.

2024-cü ildə ASCO və SOCAR-ın birgə müəssisəsi tərəfindən alınan gəminin bu səfəri Azərbaycanın beynəlxalq dəniz nəqliyyatında coğrafiyasının genişlənməsi baxımından diqqət çəkir.

* * *

Həftə ərzində dünya əmtəə birjalarında qiymət dəyişiklikləri də müşahidə olunub. Neft bazarında "Brent" markalı xam neftin bir bareli 2 sent bahalaşaraq 95,84 dollara, "Light" markalı neft isə 18 sent ucuzlaşaraq 88,56 dollara satılıb.

Qiymətli metallar bazarında isə qızılın bir troya unsiyasının qiyməti 1 dollar artaraq 3886,3 dollara yüksəlib.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

REGİONLAR

Gəncə xəbərləri

Media nümayəndələri ilə görüş keçirilib

ŞİH-in başçısı Niyazi Bayramov Gəncə Biznes Mərkəzində şəhərdə fəaliyyət göstərən media nümayəndələri ilə görüşüb. Görüşdə YAP şəhər təşkilatının sədri Bayram Aslanov və ŞİH-in məsul əməkdaşları iştirak etmişlər.



Çay süfrəsi ətrafında səmimi şəraitdə keçən görüşdə N.Bayramov media nümayəndələri ilə fikir mübadiləsi aparmış, onların təklif və müraciətlərini dinləmişdir. O, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə göstərdikləri diqqət və qayğıdan danışmışdır. Bildirmişdir ki, son illər Gəncədə genişmiqyaslı abadlıq və quruculuq işləri aparılır, infrastrukturun yenilənməsi istiqamətində mühüm layihələr həyata keçirilir, o cümlədən küçə və prospektlərdə, məhəllələrdə əsaslı təmir-bərpa işləri görülür, yolların abadlığına, kommunal xidmətlərin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir.

Media nümayəndələri də Gəncədə həyata keçirilən genişmiqyaslı layihələrə, sosial-iqtisadi sahədə əldə olunan nailiyyətlərə və şəhərə dövlət səviyyəsində göstərilən xüsusi diqqətə şahidlik etdiklərini bildirmişlər. Onlar həmçinin Gəncədə görülən işlərin ictimaiyyətə çatdırılmasında, ünvanladıqları sorğuların vaxtında cavablandırılmasında və media ilə səmərəli əməkdaşlığın qurulmasında göstərdiyi dəstəyə görə şəhər rəhbərliyinə minnətdarlıqlarını ifadə etmişlər.

Görüş çərçivəsində N.Bayramov Azərbaycan televiziya və radio işçilərinin peşə bayramı münasibətilə Prezident İlham Əliyevin 5 noyabr 2026-cı il tarixli sərəncamı ilə təltif olunan media nümayəndələrini təbrik etmişdir.

Görüşün sonunda xatirə şəkli çəkdirilmişdir.

V Kitab Sərgisi 3 gün davam etdi

Gəncədə V Kitab Sərgisi keçirilmişdir. 3 gün davam edən sərgidə kitabsevərlər və ədəbiyyat həvəskarları müxtəlif nəşrlərlə tanış olmaq, sevdikləri əsərləri əldə etmək və yeni müəllifləri kəşf etmək imkanı qazanmışlar.



Açılış mərasimində iştirak edən şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov tədbirin təşkilatçılarına minnətdarlığını bildirmişdir. Sonra o, "Gəncəsənət" satış-sərgi yarmarkasında əl işləri, dekorativ-tətbiqi sənət nümunələri və digər sənət əsərləri ilə tanış olmuşdur.


V Gəncə Kitab Sərgisi şəhər icra hakimiyyətinin, Mədəniyyət Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin, Azərbaycan Dövlət Aqrar Universitetinin və Azərbaycan Nəşriyyatları Assosiasiyasının təşkilatçılığı ilə keçirilmişdir.


S.YUNİSOĞLU,
"Azərbaycan"

Azərbaycanın sağlamlıq turizminin mərkəzi hesab olunan Naftalan şəfa axtarışında olan minlərlə insanın üz tutduğu ünvandır. Naftalan nefti görünüşcə adi sənaye nefti ilə oxşar olsa da, 70-dən artıq xəstəliyi müalicə etməyə imkan verən kimyəvi tərkibə və şəfalı xüsusiyyətlərə malikdir.









Müalicəvi xüsusiyyətləri sarıdan bu neftin həm də maraqlı tarixçəsi var. Rəvayətə görə, naftalan neftinin müalicəvi olması xəstə bir dəvənin bu yerlərdəki yağlı göllər sayəsində sağalması ilə üzə çıxmışdır. Yazılı mənbələrdə isə bu neftin faydalı xüsusiyyətləri barədə məlumata dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində, məşhur səyyah Marko Polonun səyahət qeydlərində rast gəlinir.

Həmin vaxtdan yüz illər keçsə də, sağlamlıq turizminin mərkəzi Naftalan inkişaf etmiş, dünyada tanınan müalicə mərkəzinə çevrilmişdir. Həm bura üz tutan xəstələrin şəfa tapması, həm də şəhərdə yaradılan müasir infrastruktur Naftalanı turistlər üçün cəlbedici kurort mərkəzi etmişdir. Odur ki, fəsildən asılı olmayaraq, Naftalanın çoxsaylı müalicə mərkəzlərində boş yer tapmaq elə də asan deyil. İlboyu Naftalana şəfa dalınca Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Ukrayna, Latviya, Gürcüstan, eləcə də Türkiyə, İran, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Meksika, Hindistan, Polşa, İtaliya, Şimali Koreya, Kanada və digər ölkələrdən minlərlə turist gəlir. Onları çoxsaylı 3 və 5 ulduzlu sanatoriyalar, həmçinin turizm-istirahət mərkəzləri qəbul edir.

Onlardan biri də Naftalan Müalicə və Sağlamlıq Mərkəzidir. Fəaliyyətə başladığı vaxtdan İlqar Hüseynovun rəhbərlik etdiyi sağlamlıq mərkəzi 5 binadan ibarətdir və onlar arasında əlaqələndirmə keçidləri var. Sağlamlıq ocağı gün ərzində 400-ə yaxın pasiyenti qəbul edir. Mərkəzdə diaqnostika kompleksi fəaliyyət göstərir. Müalicəyə gəldikdə burada naftalan yağı ilə dəri, sinir sistemi, uroloji və ginekoloji xəstəliklər, eləcə də bədənin 70-dən çox xəstəliklərini müalicə etmək mümkündür. Mərkəzdə həmçinin masaj və parafinlə müalicə, lazer terapiyası, maqnitoterapiya, UHF, UFO vibromasaj, elektroforez, ümumi qan və şəkər analizləri aparılır.

Şəfa görmək istəyən Naftalana gəlsin

Söhbət zamanı mərkəzin direktoru dedi ki, burada pasiyentlər üçün unikal şərait yaradılmışdır: "Onlara Azərbaycan və Avropa mətbəxinin pəhriz yeməkləri təqdim olunur. Xəstələr boş vaxtlarında bilyard, stolüstü tennis, şahmat və dama oynaya bilərlər. Yaşıllıqlara bürünmüş ərazimizdə isə musiqi kollektivləri hər həftə maraqlı proqramla çıxış edirlər".

Direktor onu da əlavə etdi ki, bu il sağlamlıq mərkəzinə gələnlərin sayında xeyli artım olmuşdur: "İlin 9 ayında mərkəzimizə 7 min 200 nəfər yerli və xarici turist gəlmişdir ki, bu da əvvəlki ildəkindən 15 faiz çoxdur. Xarici turistlərin əksəriyyəti Qazaxıstan, Özbəkistan, İsrail, Rusiya, Belarus, Ukrayna, Çin, Türkiyə və Polşadan olmuşdur. Rusiyadan gələn turistlər əsasən Moskva, Novosibirsk, Krasnoyarsk, Sankt-Peterburq, Türkiyədən gələn turistlər isə əsasən Ankara və İstanbuldan olur".

Direktordan öyrəndik ki, mərkəzdə müalicə aparatları tez-tez yenilənir. Bu yaxınlarda yeni ultrasəs (USM) müayinə aparatı, maqnitoterapiya avadanlıqları, elektrokardioqrafiya (EKQ) cihazları və bir sıra laboratoriya analizlərinin aparılması üçün müasir tibbi avadanlıqlar alınıb. Bundan başqa, biokimyəvi analizlərin aparılması üçün də tibbi cihazlar dəyişdirilib. Bunlar diaqnozun düzgün qoyulmasına və pasiyentlərə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə imkan yaradır.

Naftalan Müalicə və Sağlamlıq Mərkəzində pasiyentlərlə də söhbət etdik. Məlum oldu ki, onların arasında 10 ildir bura gələn var. Moskvadan gəlmiş Lyubov Mixaylovna hər il burada sağlamlığını bərpa edir: "Oynaq xəstəliklərim var. Burada naftalan vannası qəbul edirəm. Moskvaya gümrah qayıdıram. Sanatoriyanın xidmətlərindən olduqca razıyam. Turistlərə yüksək səviyyədə qulluq göstərilir. Hətta ekskursiyaya da aparırlar". Sankt-Peterburqdan gəlmiş Marina Nikolayevna da ona göstərilən xidmətdən razılıq etdi. Dedi ki, 5 ildən artıqdır Naftalanda həm müalicə alır, həm də istirahət edir: "Burada çox mehriban tibb işçiləri xidmət göstərirlər. Müalicədən sonra özümü çox gümrah hiss edirəm. Buna görə mərkəzin kollektivinə minnətdaram".

Sabir ƏLİYEV,
"Azərbaycan"

"Şəhərsalma və Memarlıq İli" Lənkəran üçün düşərli olub









"Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Cənub mirvarisi" Lənkəranda da xeyli işlər görülür. Əhalinin mənzilə olan tələbatının ödənilməsi üçün çoxmərtəbəli yaşayış binaları inşa edilir, müxtəlif ərazilərdə parklar, yaşıllıqlar salınır, küçələr asfaltlanır, digər infrastruktur layihələri həyata keçirilir.

Nazirlər Kabinetinin 19 mart 2025-ci il tarixli sərəncamı ilə şəhərdəki qəzalı vəziyyətdə olan çoxmənzilli yaşayış binası üçün 5 mərtəbəli, 26 mənzilli yeni bina tikilir. Həmçinin Köhnə Ələt-Astara magistral yolunun Lənkəran ərazisindəki Viravulçay və Girdəniçay üzərində istismar müddəti başa çatmış körpülərin inşaat norma və qaydalarının tələblərinə uyğun yenidən qurulmasına da başlanılıb.

Layihə dəyəri 30 milyon manat, tikinti sahəsi 11 min 624,9 kvadratmetr olan Lənkəran Dövlət Peşə Təhsil Müəssisəsinin yeni inzibati binası isə artıq istifadəyə verilib. 7 korpusdan ibarət təhsil müəssisəsində tədris, yataqxana və laboratoriya, eləcə də hotel, kulinariya korpusları, avtomobillərin təmiri emalatxanası, diaqnostikası üçün binalar var. Müəssisədə 42 ixtisas üzrə tələbələrə peşə təhsili verilir. Müstəqillik dövrümüzdə bu təhsil ocağında ilk dəfə olaraq 1000-dən çox tələbə təhsil almaq imkanı əldə edib. Qadınların peşə təhsilinə cəlb olunması 35 faizdən çoxdur. Müəssisədə dövlət və özəl sektorla əməkdaşlıq qurulub, birgə məhsul və xidmətin təşkili isə formalaşmağa başlayıb. Təhsil müəssisəsi beynəlxalq səviyyədə Türkiyə və Malayziya ilə əməkdaşlıq edir. Xatırladaq ki, 2026-cı il fevralın 25-dən fəaliyyətə başlayan Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin açılışında Prezident İlham Əliyev iştirak etmişdir.

2026-cı il fevralın 20-də Lənkəranda yeni inşa edilən 90 çarpayılıq "Yaşa Hospital"ın açılış mərasimi keçirilib. Ümumi dəyəri 9 milyon manat, ümumi sahəsi 0,22 hektar, tikinti sahəsi 4 min kvadratmetr olan hospitalın tikintisinə 2022-ci ildən başlanılmışdı. 3 mərtəbə və mansarddan ibarət, müasir avadanlıqlarla təchiz olunan hospitalda 6 əməliyyat bloku, laboratoriya kabineti, 8 nəfərlik ümumi reanimasiya və 4 nəfərlik kardio reanimasiya bloku var. Ürək-damar, travmatoloji, neyroloji, ümumi, oftalmoloji xəstəliklərin müalicə olunduğu və plastik cərrahiyyə, angioqrafiya xidmətlərinin göstərildiyi hospitalın ümumi xəstə tutumu 90, iş yerlərinin sayı isə 150 nəfərdir. Hospitalda günlük 300 nəfərə xidmət göstərilir. Təcili tibbi yardımın təşkili üçün hospital 2 (biri reanimobil olmaqla) ambulans avtomobillə təmin olunub. MRT, KT, angioqrafiya, mammoqrafiya, rentgen, oftalmoloji avadanlıqlar və digər tibbi aparatlar Almaniya, Türkiyə, Cənubi Koreya və Yaponiyadan gətirilib. Regionda ilk dəfə olaraq "Yaşa Hospital"da laparoskopik, endoskopik və kolonoskopik əməliyyatlar da həyata keçirilir.

Seyran CAVADOV,
"Azərbaycan"

Qubada keçiriləcək elmi konfrans regionlarda ali təhsilin inkişafına həsr ediləcək

Noyabrın 19-21-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialında "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" mövzusunda VI beynəlxalq elmi konfrans keçiriləcək.

Filialdan verilən məlumata görə, I Türkoloji Qurultayın 100 illiyinə həsr olunan konfransa Türkiyə, Özbəkistan və Qazaxıstanın region universitetləri tərəfdaşlıq edir.

Əməkdaşlığın əsas məqsədi regional ali təhsil müəssisələri arasında elmi əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsinin təşviqi və birgə tədqiqat imkanlarının inkişaf etdirilməsidir.

Konfransda regionlarda ali təhsilin inkişaf perspektivləri, ali təhsilə əlçatanlıq, kadr hazırlığının yerli ehtiyaclarla əlaqələndirilməsi, universitetlərin regional inkişafda rolu və qabaqcıl tədris təcrübəsinin paylaşılması məsələləri müzakirə olunacaq. Həmçinin birgə tədqiqatların təşkili və akademik mübadilə imkanları ətrafında fikir mübadiləsi aparılacaq.

Tədbir çərçivəsində I Türkoloji Qurultayın elmi irsinə, türk xalqlarının dilinin, tarixinin və mədəniyyətinin öyrənilməsinə, ortaq elmi-mədəni irsin yeni nəsillərə çatdırılmasına diqqət yetiriləcək. Bu istiqamətdə müzakirələrin müasir təhsil və beynəlxalq elmi əməkdaşlıq məsələləri ilə əlaqələndirilməsi nəzərdə tutulur.

Konfransın açılış mərasimi və plenar iclası ADPU-nun Quba filialında təşkil olunacaq. Elmi müzakirələrin regionlarda fəaliyyət göstərən ali təhsil müəssisələri arasında təcrübə mübadiləsinin genişləndirilməsinə və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsinə töhfə verəcəyi gözlənilir.

Qəbələdə məktəblilərə öz hüquqları barədə məlumat verilib

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeçiliyində fəaliyyət göstərən Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun və Qəbələ Arxeoloji Mərkəzinin birgə təşkilatçılığı ilə mərkəzin akt zalında "Uşaq Hüquqları Aylığı" çərçivəsində "Sən öz hüquqlarını bilirsənmi?" başlığı altında toplantı təşkil olunub.

Toplantıda Vətən müharibəsi qazilərinin və iştirakçılarının övladları ilə yanaşı, müxtəlif yaş qruplarından olan məktəbli şagirdlər də iştirak edib. AZƏRTAC xəbər verir ki, "dəyirmi masa" ətrafında keçirilən tədbirdə Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun direktoru Zahir Kərimov diqqətə çatdırıb ki, Azərbaycanda İnsan hüquqları üzrə müvəkkilin (ombudsman) təşəbbüsü ilə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının (UHK) qəbul edilməsinin ildönümü ərəfəsində bu il oktyabrın 20-dən noyabrın 20-dək ölkəmizdə "Uşaq Hüquqları Aylığı" elan olunub.

Bildirilib ki, aylığın keçirilməsində əsas məqsəd uşaq hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərin təbliği, bu sahədə ictimaiyyətin məlumatlılığının və diqqətinin daha da artırılmasından ibarətdir.

Qeyd olunub ki, Azərbaycanda dövlət uşaq siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu siyasət daim Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə davam etdirilir.

Tədbirdə uşaq hüquqları sahəsində qəbul olunmuş qanunlar və konvensiyalar, eləcə də dövlətimiz tərəfindən bu istiqamətdə həyata keçirilən mühüm tədbirlər barədə məlumat verilib. Bildirilib ki, görülən işlərin əsas məqsədi kimsəsiz, valideyn himayəsindən məhrum olmuş, əlilliyi olan, müxtəlif xəstəliklərdən əziyyət çəkən keçmiş qaçqın və məcburi köçkün uşaqların, həmçinin azyaşlı məhkumların pozulmuş hüquqlarının bərpası və təmin edilməsidir.

Vurğulanıb ki, 44 günlük Vətən müharibəsindən sonra həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri çərçivəsində ölkənin digər bölgələri ilə yanaşı, işğaldan azad edilmiş ərazilərdə də uşaqlar üçün zəruri infrastruktur və xidmətlər yaradılır, onların hüquqlarının təmin olunması istiqamətində davamlı tədbirlər görülür.

Toplantıda uşaqları maraqlandıran suallar cavablandırılıb, qoruq əməkdaşları tərəfindən onlara hədiyyələr təqdim olunub.

Sonda Qəbələ Arxeoloji Mərkəzin sərgi salonlarında nümayiş olunan tarixi eksponatlara baxış keçirilib.

Bakı-Xankəndi Azərbaycan velosiped yarışına hazırlıq məsələləri müzakirə edilib

Azərbaycan Velosiped İdmanı Federasiyasında (AzVİF) 2027-ci il mayın 9-dan 13-dək keçiriləcək Bakı-Xankəndi Azərbaycan velosiped yarışına hazırlıq çərçivəsində yol infrastrukturunun vəziyyəti ilə bağlı məsələlər Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İdarə Heyətinin rəhbər vəzifəli şəxsləri ilə ətraflı müzakirə edilib.



AzVİF-dən AZƏRTAC-a verilən məlumata görə, qurumun 1-ci vitse-prezidenti Sahib Ələkbərov ölkəmizin müasir və inkişaf etmiş yol infrastrukturuna malik olduğunu vurğulayaraq bildirib ki, Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) beynəlxalq velosiped yarışlarının təşkili zamanı yol infrastrukturunun keyfiyyətinə və təhlükəsizlik tələblərinə xüsusi önəm verir. O qeyd edib ki, bu ilin may ayında keçirilmiş yarışda iştirak etmiş xarici idmançılar, komandalar və rəsmi şəxslər ölkəmizin yol infrastrukturunu yüksək qiymətləndiriblər.

Bununla yanaşı, bəzi marşrutlarda, xüsusilə də onların işğaldan azad olunmuş, bərpa-təmir işləri hələ tam başa çatdırılmamış hissələrində müəyyən çatışmazlıqların olduğu da aşkarlanıb.

Yarışın hər bir mərhələsinin marşrutlarının nəzərdən keçirilməsi zamanı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini Əli Hacıyev və agentliyin Nəqliyyat İnfrastrukturunun İstismarı və Təmiri Departamentinin müdiri Şahin Mustafayev son bir neçə ay ərzində yağan güclü yağışlar nəticəsində marşrutların bəzi hissələrində yol infrastrukturuna ziyan dəydiyini diqqətə çatdırıblar. Ortaya çıxmış problemlərin aradan qaldırılması və ya bəzi marşrutlara dəyişikliklər edilməsi üçün AAYDA-nın və Velosiped Federasiyasının əməkdaşlarının birlikdə bütün marşrutlara bir daha yerində baxış keçirmələri və bundan sonra konkret qərarlar verilməsi barədə razılığa gəlinib.

"Balaca səyyah" tamaşaçılarla görüşüb

Məktəblilərin payız tətili başladığı bu günlər Azərbaycan Dövlət Kukla Teatrında "Balaca səyyah" tamaşasının premyerası keçirilib.





Belarus dramaturqu, rejissoru və aktyoru Dmitri Boqoslavskinin "Mən necə səyyah oldum" əsəri əsasında hazırlanan tamaşa uşaqların böyük arzulara gedən yolunun yalnız xəyal və cəsarətdən deyil, həm də bilik və hazırlıqdan keçdiyindən bəhs edir. Tamaşanın baş qəhrəmanı dünyanı kəşf etmək, yeni ölkələr görmək, üfüqləri aşmaq arzusunda olan balaca bir oğlandır. O, ilk səyahətinə çıxaraq dəniz canlıları və digər maraqlı obrazlarla qarşılaşır, müxtəlif macəralar yaşayır və hər qarşılaşmada yeni bir həqiqəti kəşf edir.

Səhnə işinin əsas ideyası uşaqlara öyrənməyin, məktəb biliklərinin və dünyagörüşünün gələcək arzulara çatmaqda mühüm rol oynadığını aşılamaqdır. Qəhrəman səyahət zamanı anlayır ki, coğrafiya ilə yanaşı, riyaziyyat, xarici dil və digər fənlər də onun üçün vacibdir. Beləliklə, macəra yolu ilə o, arzularına çatmaq üçün ilk növbədə öz üzərində çalışmalı olduğunu dərk edir. Yumor, fantaziya, interaktiv dialoqlar və rəngarəng kukla obrazları ilə zəngin olan tamaşa balaca tamaşaçıları həm əyləncəli macəraya, həm də bilik dünyasına dəvət edir.

Kukla Teatrının Mətbuat xidmətindən verilən məlumata əsasən, "Balaca səyyah"ın səhnələşdirmə və quruluş müəllifi Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Əməkdar artist Vüqar Camalzadədir.

Birhissəli uşaq tamaşasında obrazları teatrın aktyorları - Əməkdar artist Cəmilə Allahverdiyeva, aktyorlar Rəhim Rəhimov, Səriyyə Mansurova, Bayram Ağamalıyev, Araz Həsənli, Könül Nəsibli, Səbinə Məmmədova, Ramiz Qəmbərov, Samirə Nəcəfova, Yusif Baxşəliyev, Firuzə Nəsibli və Yasin Abbasov canlandırırlar.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Tolerantlıq insanlığın mənəvi ucalığı, cəmiyyətin birliyi, xalqların həmrəyliyidir

Dünyanın ən böyük zənginliyi nə sərvət, nə maddi nemət, nə də iqtisadi gücdür. Bəşəriyyətin əsl zənginliyi müxtəlif dillərdə danışan, fərqli dinlərə inanan, ayrı-ayrı mədəniyyətləri yaşadan insanların eyni səma altında sülh, qarşılıqlı hörmət və anlaşma şəraitində yaşaya bilmələridir.



İnsanları bir-birindən fərqləndirən xüsusiyyətlər onları ayırmaq üçün deyil, əksinə, bir-birini daha yaxından tanımaq, anlamaq və zənginləşdirmək üçün bir fürsət olmalıdır. Məhz bu mənada tolerantlıq mənəvi keyfiyyət olmaqla yanaşı, həm də insanlığın gələcəyini müəyyən edən mühüm dəyərdir.

Tolerantlıq insanın daxilində başlayan mənəvi mədəniyyətdir. Tolerant olmaq başqasının fərqli düşünmək hüququna hörmətlə yanaşmaqdır. Tolerantlıq öz inancına, milli kimliyinə və dəyərlərinə sahib çıxmaqla yanaşı, başqalarının da eyni hüquqlara malik olduğunu qəbul etməkdir. Tolerant insan fərqlilikdən qorxmur, onu həyatın təbii rəngarəngliyi kimi dəyərləndirir. Hörmət olmayan yerdə anlaşma, anlaşma olmayan yerdə isə davamlı əminamanlıq yoxdur.

Bu baxımdan Azərbaycan dünyanın diqqətini cəlb edən özünəməxsus tarixi və mənəvi ənənələrə malik ölkələrdəndir. Azərbaycan əsrlər boyu müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin qovuşduğu məkan, Şərqlə Qərb arasında mənəvi körpü olmuşdur. Ölkəmizdə azərbaycanlılarla yanaşı, ləzgilər, talışlar, avarlar, yəhudilər, ruslar, udinlər və digər xalqlar tarixən birgə yaşamış, öz dillərini, adət-ənənələrini və mədəni irslərini qoruyub saxlamışlar. Bu torpaqda məscidlərin, kilsələrin, sinaqoqların və müxtəlif dini abidələrin yanaşı mövcudluğu tolerantlığın sözdə deyil, gündəlik həyatımızda da öz əksini tapdığını göstərən mühüm nümunələrdəndir. Azərbaycanın tolerantlıq ənənələrinin əsas xüsusiyyəti onun tarixi yaddaşımızdan və həyat tərzimizdən qaynaqlanmasıdır. Qonaqpərvərlik, mərhəmət, böyüyə hörmət, fərqli düşüncəyə anlayışla yanaşmaq xalqımızın mənəvi dəyərlərinin ayrılmaz hissələridir. Bu gün də multikulturalizmin və tolerantlığın dövlət siyasətinin mühüm istiqamətlərindən biri olması həmin ənənələrin qorunmasına və inkişafına xidmət edir.

Prezident İlham Əliyev çıxışlarında Azərbaycanın bu sahədəki təcrübəsinə xüsusi diqqət yetirir. Dövlətimizin başçısı 2021-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasındakı videomüraciətində demişdir: "Azərbaycanda multikulturalizmi həyat tərzi kimi qoruyur və dəstəkləyirik. Azərbaycan ölkəmizdə yaşayan müxtəlif dini və etnik qrupların nümayəndələrinin tolerantlıq və dinc yanaşı yaşamasının nümunəsi hesab olunur". Bu fikirlər ölkəmizdə müxtəlifliyə münasibətin dövlət səviyyəsində ifadəsi olmaqla yanaşı, xalqımızın əsrlərdən gələn birgəyaşayış ənənələrini də əks etdirir.

Bu gün Azərbaycanın Bakı Beynəlxalq Humanitar Forumu, Dünya Mədəniyyətlərarası Dialoq Forumu və digər beynəlxalq təşəbbüslərlə mədəniyyətlərarası münasibətlərin inkişafına töhfə verməsi xüsusi əhəmiyyət daşıyır. 2008-ci ildə başlanmış Bakı Prosesi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun gücləndirilməsinə yönəlmiş mühüm beynəlxalq təşəbbüslərdən biridir. Bütün bunlar göstərir ki, tolerantlıq təkcə ölkə daxilində qorunmalı dəyər deyil, həm də beynəlxalq münasibətlərdə sülhün və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edən mühüm amildir.

Tolerantlığın qorunması dövlətlərin və beynəlxalq təşkilatların vəzifəsi kimi qəbul edilməməli, eyni zamanda vətəndaşların üzərinə düşən bir məsuliyyət olmalıdır. Ailədə övladlara başqa insanlara hörmət etməyi öyrətmək, məktəblərdə dostluq və humanizm ruhunu aşılamaq, cəmiyyətdə ayrı-seçkiliyə qarşı mövqe nümayiş etdirmək gələcək nəsillərin sağlam mənəvi mühitdə yetişməsinə kömək edir. Xüsusən müasir informasiya dünyasında dini, milli və irqi zəmində nifrət yayan fikirlərə qarşı ayıq olmaq, həqiqəti təhrif edən çağırışlara uymamaq hər birimizin borcudur. Unutmamalıyıq ki, müharibələr, nifrət və düşmənçilik insanları bir-birindən uzaqlaşdırır, tolerantlıq, mərhəmət və qarşılıqlı hörmət isə yaxınlaşdırır. Dünyanın bu gün ən çox ehtiyac duyduğu dəyərlər məhz bunlardır. İnsanların fərqli olmaları problem deyil, problem bu fərqlilikləri qarşıdurma səbəbinə çevirməkdir.

Beynəlxalq Tolerantlıq Günü hər birimizə bir daha xatırladır ki, insanlığın əsl böyüklüyü başqasını olduğu kimi qəbul etməkdədir. Gəlin, yaşadığımız dünyanı nifrətin, düşmənçiliyin, ayrı-seçkiliyin yox, sevginin, bərabərliyin, dostluğun hökm sürdüyü bir məkana çevirək. Tolerantlıq hər gün yaşadılmalı olan mənəvi dəyərdir. Fərqliliklərimiz bizi ayırmasın, əksinə, birləşdirsin! İnsanlığın gələcəyi məhz bu birlikdən, qarşılıqlı hörmətdən və ali mənəvi dəyərdən keçir.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Yeni "25-ci kadr" platformasında "Qızıl Ayı" mükafatlı film təhlil olunub

Azərbaycan Ssenaristlər Gildiyasının təşəbbüsü ilə yaradılan "25-ci kadr" film müzakirə platformasının ilk görüşü olub.



Gildiyadan AZƏRTAC-a bildirilib ki, layihənin əsas məqsədi kino ictimaiyyətini bir araya gətirməklə peşəkar film müzakirəsi ənənəsini formalaşdırmaq, xüsusilə gənc müəllif və ssenaristlərə ekran əsərlərini dramaturji baxımdan təhlil etmək yollarını öyrətmək, həmçinin onların auditoriya qarşısında öz fikirlərini sərbəst və arqumentli şəkildə ifadə etmə bacarıqlarını inkişaf etdirməkdir.

Görüşdə 2026-cı il Berlin Beynəlxalq Film Festivalında "Qızıl Ayı" mükafatına layiq görülmüş rejissor İlker Çatakın "Sarı məktublar" ("Gelbe Briefe") bədii filminin peşəkar təhlili aparılıb. Almaniya, Fransa və Türkiyənin müştərək istehsalı olan bu ekran əsəri Ankarada yaşayan sənətçi cütlük - Derya və Azizin teatr premyerasından sonra üzləşdikləri siyasi təzyiqlərdən, işlərini itirmələrindən və yeni həyat qurmaq məcburiyyətində qalmalarından bəhs edir.

Azərbaycan Ssenaristlər Gildiyasının sədri Nicat Dadaşov çıxışında bildirib ki, platformada filmlərə yalnız "bəyəndim" və ya "bəyənmədim" prizmasından yanaşılmır. Burada ssenarist, rejissor, tənqidçi və aktyor eyni masa arxasında əyləşərək filmin dramaturji quruluşunu və müəllifin niyyətini təhlil edir, zalda əyləşən qonaqlar isə müzakirə prosesinin birbaşa iştirakçısına çevrilirlər.

O qeyd edib ki, insanların öyrənmək, fikir bildirmək və bu yaradıcı mühitin bir parçası olmaq istəyi layihənin əhəmiyyətini daha da artırır.

Tədbirin xüsusi qonaqları kinorejissor və ssenarist Samir Kərimoğlu, kinotənqidçi və kinoşünas Aygün Aslanlı, kinorejissor və prodüser Fariz Əhmədov, eləcə də teatr və kino aktrisası Zülfiyyə Qurbanova filmin dramaturji strukturu, ssenari həlləri, obrazların qurulması, ailə və fərd arasındakı konflikt və müasir kinoda sosial-siyasi reallıqların bədii əksi mövzularında öz peşəkar fikirlərini bölüşüblər.

İnteraktiv müzakirə formatında davam edən görüşdə kino ictimaiyyətinin nümayəndələri, gənc ssenaristlər və kino həvəskarları yaxından iştirak edərək mövzu ətrafında fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, "25-ci kadr" platforması çərçivəsində film müzakirələri mütəmadi olaraq təşkil olunacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən imtiyazlı şəxs Rövşən Məştaba oğlu Ağasiyevin adına verilmiş Bakı şəhəri Sabunçu rayonu, Ramana qəsəbəsi, ev 14, mənzil 19 ünvanına dair sənəd itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Elşən Qəniyevə əzizi Azərbaycanın Milli Qəhrəmanı

EHTİRAM ƏLİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin kollektivi Azərbaycanın Milli Qəhrəmanı

EHTİRAM ƏLİYEVİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə əzizi

İRA QAFAROVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Əli Abbasova anası

FATMA XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İspaniya Krallığındakı Səfirliyinin kollektivi səfirliyin müşaviri Nadir Saraclıya atası

RAMİZ XANVERDİ OĞLU SARACLININ

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tanınmış jurnalist, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə anası

YAVƏR XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə anası

YAVƏR XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə əzizi

İRA QAFAROVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan şəhərindən Hüseyn Məşdi oğlu Əliyev ailəsi ilə bilikdə Sumqayıt Dövlət Universitetinin rektoru profesor, Əməkdar elm xadimi Nurəli Adil oğlu Yusifliyə əzizi

PƏRVİN XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əli, Mobil və Nail Hüseynovlar, Əlövsət Əliyev, Ağamirzə Dünyamalıyev, Samir və Elmar Məmmədovlar, Mehman Qasımov və İlham Həsənov Azərbaycan Respublikasının İspaniya Krallığındakı Səfirliyinin müşaviri Nadir Saraclıya atası

RAMİZ XANVERDİ OĞLU SARACLININ

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3292
Sifariş 1515

Qiyməti 60 qəpik